

# Türk birliyinin yeni mərhələsi...

*Xəbər verildiyi kimi, avqustun 9-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Prezident Rəcəb Tayyib Ərdoğanın dəvəti ilə Türkiyəyə işgüzar səfəri baş tutub. Ölkə başçısının qardaş ölkəyə səfəri V İslam Həmrəyliyi Oyunları çərçivəsində baş tutsa da, həm də keçirdiyi görüşlərlə diqqət çəkib. Səfər çərçivəsində Prezident İlham Əliyev...*

Səh.2


# UNİKAL

№29 (2114) 12 avqust 2022-ci il

Qiyməti 50 qəpik

Qurucusu: Asəf Rzayev www.unikal.org unikal-1@mail.ru




# Səfər Mehdiyevin "həyasızlıq" ölçüsü

## Keçmiş komitə sədrinin vəzifə borcunu layiqincə yerinə yetirənlərdən zəndeyi-zəhləsi gedirmiş...

*Yola salmaq üzrə olduğumuz həftənin ən çox müzakirə edilən mövzularından biri Dövlət Gömrük Komitəsinin (DGK) sabiq sədri, gömrük xidməti general-polkovniki Səfər Mehdiyevin yol polisi tərəfindən saxlanılmasına dair videogörüntülər oldu. Unikal.org-un məlumatına görə, 90-AA-978 dövlət qeydiyyat nişanlı "Mercedes Galendewagen" markalı avtomobilindən düşən sabiq DGK sədri Yol Patrul Xidmətinin əməkdaşları ilə mübahisə edib. O, YPX əməkdaşına "Sən nə həyasız adamsan? Görmürsən general-polkovnik Mehdiyevdir?" deyib. Qeyd edək ki, sözügedən video Səfər Mehdiyevin Dövlət Gömrük Komitəsinin sədri olduğu vaxtda lentə alınıb.*

Səh.5



# Azərbaycan Ordusu Buzdux yüksəkliyində - Son durum

Səh.9

## "Azərbaycanda əmlak amnistiyası lazımdır"



*REAL Partiyasının icra katibi, iqtisadçı ekspert Natiq Cəfərli "Unikal"a müsahibə verib. O, ərzaq məhsullarının qiymətinin bahalaşmasından, manatın məzənnəsinin ilin sonuna qədər necə olacağından, sənədsiz evlərin sənədləşdirilməsi üçün hansı addımların atılmalı olduğundan danışıb.*

Səh.4

## Cavanşir Feyziyev yenidən tənqid hədəfində



*Son vaxtlar dərmanların qiymətində kəskin artım müşahidə olunur. Tələbatın yüksək olduğu dərman pereparatları ya tapılmır, ya da olduqca baha qiymətə satılır. Dərmanların qiyməti çeşidindən asılı olaraq, orta hesabla 10-15 % civarında bahalaşıb. Məlumata görə...*

Səh.6

## İctimai və dövlət maraqları necə təmin olunmalı?



*Hər bir cəmiyyətdə ictimai maraqlarla yanaşı dövlətin də maraqları qorunur. İctimai maraqların müdafiəsi bəzən dövlət maraqları ilə üst-üstə düşməyə, müəyyən fikir ayrılıqlarına da səbəb ola bilər. Bu zaman ortaya çıxan əsas sual hər kəsi maraqlandırır-İctimai maraqlar daha üstün tutlmalıdır, yoxsa dövlətin maraqları?*

Səh.11

# "Qorxdular ki, birdən mənə qarşı xəta törədər" - Nazpəri



***"Cangüdənlə gəzən müğənnilər bunu reklamları üçün edirlər. Sənətə heç bir şey lazım deyil. Yalnız sənətin və özün. İnsanlığını itirmə. Sənətə gəldinsə, bir sənətini və bir də xalqın musiqisini qoru. Cangüdənə isə ehtiyac yoxdur".***

Bu sözləri Xalq artisti Nazpəri Dostəliyeva "Günün sədası" verilişində qonaq olarkən deyib. Sənətçi konsertlərinin birində başına gələn hadisədən də danışıb:

"Bütün konsertlərimdə cangüdən olub. Konsertin gedişatı, pərəstişkarların özünü saxlaya bilmədiyi üçün cangüdən lazımdır. Heç yadımdan çıxmaz. Zaqatalada konsert verirdim. Bir oğlan pərəstişkarım aşağıdan necə hoppandısa səhnəyə ki, gəlsin məni qucaqlasın, öpsün. Bilmədilər nə üçün həmin oğlan qaçdı, qorxdular ki, birdən mənə qarşı xəta törədər. Bunu görən musiqiçilər həmin gəncə yaxınlaşıb, ona düzgün hərəkət etmədiyini söylədilər. O anda oğlanın ürəyi getdi. Təcili tibbi yardım gəldi. Elə konsertim olmadı ki, orada təcili tibbi yardım olmasın. Əgər bu sevginin önündə mən zədələnsəm də, o sevgidən alacağım zədəyə hazıram, qoy olsun".

# "Bədbəxt olmasının günahkarı özüdür" - Bacısından Mənzurəyə



***"Mənzurə atanı çox istəyirdi. O öləndən sonra aylarla özünə gələ bilmədi".***

Bu sözləri müğənni Mənzurə Musayevanın bacısı "1 Dəqiqə" verilişinə açıqlamasında deyib. O, ifaçının ailəsinin dağılmasından danışıb:

"Mənzurə 27 yaşına qədər çəkdiyini-çəkdi. Ailə onda alınmadı. Amma elə-belə o, hamıdan xoşbəxt idi. Övlad sahibi olmaq istəyirdi, alınmadı, olmadı. Həkim ona demişdi ki, övladınız olmayacaq. Problem həyat yoldaşında idi. Sonra da heç kimi sevə bilmədi. Bədbəxt olmasının günahkarı özüdür".

Mənzurə yenidən ailə həyatı qurmamasına münasibət bildirib: "Allah mənə belə qismət yazıb. Boşandıqdan sonra yenə ailə qurmaq üçün çalışdım. Həyat yoldaşımdan ayrıldıqdan sonra, evlilik təklifləri çox almışam. Mənə elə gəlir ki, bu, Allahın qismətidir, icazə vermədi ki, yenidən ailə qurum".

İfaçı xəstəlikdən əziyyət çəkən atasının son günlərini isə belə təsvir edib: "Atam şəkər xəstəsi idi. Barmağının biri bir az qaralmışdı. İnanmazdıq ki, onun ayağını kəsərlər. Əvvəl barmağını, sonra isə ayağını dizindən kəsdilər. O anları yenidən yada salmaq belə istəmirəm. Atam sanki altı ay o dünyadan danışdı. Elə düşünürdü ki, ayağı üstündədir. Ayağa qalxıb, gəzmək istəyirdi, amma qalxanda yıxıldı".

# Röya şəhidin sevgilisinə yazdığı məktubun sözlərinə mahnı oxudu



***Xalq artisti Röya Ayxan şəhid Pərviz Əliyevin sevgilisinə yazdığı məktubun sözlərinə mahnı ifa edib.***

Müğənni mahnını studiyada səsləndirdiyi anları sosial media hesabında paylaşıb. O, videoya "Ürəyimdən gəldi, demo paylaşmaq istədim. Notlarda səhvim ola bilər. Fikir verməyin. Çünki sözlər ürəyimə toxundu" sözlərini yazıb.

"Yada düşürsən" mahnısının bəstəkarı Fərid Kərimliyə məxsusdur. Xalq artisti Nurəddin Mehdixanlı isə şəhidə itafən yazılan sözləri qiraət edib.

Qeyd edək ki, Pərviz Həsən oğlu Əliyev I Qarabağ müharibəsində iştirak edib. Onun döyüş yolu Füzuli rayonundan Aşağı Veysəlli, Dilağarda, Govşadlı kəndlərindən keçib. 5 aprel 1993-cü ildə Mənggələnata yüksəkliyi uğrunda gedən döyüşdə şəhid olub.

# Azərbaycanlı rəqqasəyə 19 milyon dollarlıq hədiyyə veriblər



***Aktrisa Oksana Rəsulova növbəti açıqlaması ilə diqqət çəkib.***

"Unikal" olay-a istinadən xəbər verir ki, sənətçi "Özəl" proqramında qonaq olarkən bir fanatının bahalı hədiyyəsi ilə bağlı sualı cavablandırıb.

"6 il əvvəl pərəstişkarı 19 milyon dollarlıq boyunbağı bağışlayıb" sözlərinə "Bəli" deyə cavab verib.

# Roza: "Münasibətim pisdirsə, salam vermirəm"

***Müğənni Roza Zərgərli küsülü olan həmkarlarından söz açıb.***

"Unikal" bizim media-ya istinadən xəbər verir ki, sənətçi bu haqda "Maqazin plyus" verilişində deyib.

"Hansı məşhuru görüb salam verməmisən?" sualına Roza cavabı ilə diqqətləri üzərinə cəmləyib.

Zərgərli "Danışmadığım məşhurların heç birinə salam vermirəm" söyləyərək fikirlərini belə davam edib. "Elə olur ki, küsülü olan həmkarlarım süfrə arxasına gəlirlər, özümü elə aparıram ki, sanki onları görmürəm. Sevil və Sevincə salam vermirəm. Çünki onlarla danışmıram. Eləcə də Nura Suri ilə də... Elza Seyidcahanla danışmırdım. İki dəfə ona özüm salam verdim. Amma gördüm ki, verdiyim salamı haqq etmir. Ona salam verməyi dayandırdım. Hansı məşhurla münasibətim pisdirsə, ona salam vermirəm. Elza özünün ağırlsızlığından münasibətlərimizi korladı. Əslində mənim kimi dostu itirmək olmaz" - deyə Roza Zərgərli bildirib.






# Zəngəzur dəhlizi açılmasa, kütləvi köç başlayacaq

***Azərbaycan, Ermənistan və Rusiya arasında imzalanmış 10 noyabr 2020-ci il tarixli üçtərəfli bəyannaməyə əsasən Azərbaycanı Naxçıvanla birləşdirəcək və bütün region dövlətlərinin iqtisadiyyatına müsbət təsir göstərəcək Zəngəzur dəhlizi açılmalıdır. Ancaq həmin sənədin imzalanmasından 1 il 9 ay keçməsinə baxmayaraq, dəhliz hələ də açılmayıb. Buna səbəb Ermənistanın siyasi rəhbərliyinin qeyri-sabit mövqeyidir.***

Ermənistan tərəfi bir tərəfdən sülhə hazır olduqlarını, Azərbaycana qarşı ərazi iddialarında olmadıqlarını bildirir, digər tərəfdən hərbi təxribatlara əl atırlar. Sülhdən yayınmaq üçün vəziyyəti qəsdən mürəkkəbləşdirirlər. Ermənistanın ikili oyunları iki ilə yaxındır reallaşması gündəmdə olan Zəngəzur dəhlizinin açılmasını əngəlləyir.

Bəs, Zəngəzur dəhlizinin açılmasına mane olan tərəfi nələr gözləyir?

Bu barədə Modern.az-a danışan Milli Məclisin Təhlükəsizlik siyasəti, müdafiə və korrupsiya ilə mübarizə komitəsinin üzvü Aydın Mirzəzadə bildirib ki, Zəngəzur dəhlizinin açılmasına qarşı çıxan tərəf məhz Ermənistandır. Onun sözlərinə görə, İrəvan dəhlizin açılmasının onlara faydalı olacağını başa düşmək istəmir: “Ermənistanın rəsmi dairələri bunu açıq bildirməsələr də, hər halda məsələnin həllinə maraq göstərmirlər. Ermənistan ictimaiyyətində isə dəhlizlə bağlı çox ciddi fikir ayrılıqları var. Ancaq iş burasındadır ki, bu dəhliz açılarsa, ən çox fayda görən tərəf Ermənistan olacaq. Dəhlizin mövcud olması Ermənistan büdcəsinə heç bir investisya qoyulmadan, əlavə xərc çəkilmədən böyük vəsaitlərin daxil olmasına gətirib çıxaracaq”.

Deputat qeyd edib ki, Zəngəzur təkcə Azərbaycanla Naxçıvanı birləşdirən dəhliz olmayacaq: “Bu layihə onlarla ölkənin Zəngəzur dəhlizi vasitəsilə öz iqtisadiyyatını bir-birinə birləşdirməsinə səbəb olacaq. Azərbaycanın Naxçıvanla birləşmək üçün alternativ variantları var. Əgər Ermənistan dəhlizin açılmasına razılıq verməsə, Azərbaycan İran ərazisindən avtomobil və dəmiryolu xətti çəkməklə alternativ variantı işə salacaq. Uduzan yenə Ermənistan olacaq.

Vaxtilə Azərbaycan torpaqlarının işğalda saxlanılması neft və qaz kəmərlərinin Ermənistan ərazisindən keçməsinə mane oldu. Azərbaycan indi də alternativ variantını işə salacaqsa, artıq Zəngəzur dəhlizinin zərərini ilk növbədə Ermənistan çəkəcək. Ermənistan əhalisi ölkənin gələcək prespektivini görmədiyi üçün durmadan ölkədən köçür. Əgər razılıq verməsələr, hazırkı ağır vəziyyət daha da kəskinləşəcək. Ermənistandan yenə də kütləvi köç başlayacaq”.

Deputat Rasim Musabəyov isə qeyd edib ki, Ermənistanı Zəngəzur dəhlizinin açılmasına razı salmaq üçün ciddi təzyiq göstərmək lazımdır: “Hazırda biz dəhlizin açılması üçün Ermənistana təkliflər verir, eyni zamanda təzyiq göstəririk. Ancaq qarşı tərəf inad etsə, özlərini nəqliyyat blokadasında saxlamalı olacaqlar. Hələ üstəlik Laçın dəhlizini də bağlamaq imkanımız olacaq”.

# Mərkəzi Bankda "Elman Rüstəmov təmizliyi"

## Ölkənin baş bankında genişmiqyaslı islahatlara start verilib - diqqətçəkən detallar...

***Bu ilin aprelində Azərbaycan Mərkəzi Bankının (AMB) rəhbərliyində dəyişiklik oldu. Belə ki, Milli Məclisdə ”Elman Rüstəmovun Mərkəzi Bankın İdarə Heyətinin üzvlüyündən azad edilməsi haqqında” təqdimat və ”Taleh Kazımovun Mərkəzi Bankın İdarə Heyətinin üzvü vəzifəsinə təyin edilməsi haqqında” təqdimat müzakirə edildi. Deputatlar hər iki təqdimatı müsbət qarşıladılar. Bundan sonra isə ölkə başçısı T.Kazımovun ölkənin baş bankının rəhbəri təyin edilməsi ilə bağlı sərəncam imzaladı.***

Xatırladaq ki, 2 il öncə düz 27 ildir AMB sədri olan Elman Rüstəmovun Mərkəzi Bank rəhbərliyinə namizədliyi Prezident tərəfindən növbəti dəfə irəli sürülmüşdü və gözləmək olardı ki, o, 2025-ci ilə qədər postunda qalacaq. Lakin, göründüyü kimi, bu, baş vermədi. Əslində E.Rüstəmovun öz postunu itirməsi təəccüblü deyildi. Son vaxtlar həm onun, həm də ümumilikdə Mərkəzi Bankın fəaliyyəti ilə bağlı tənqidi fikirlər intensivləşmişdi. Bu mənada Rüstəmovun əvəzlənməsini “sürpriz” adlandırmaq çətin idi.

İndi isə ölkənin baş bankında genişmiqyaslı islahatlara start verildiyinə dair xəbərlər gəlir. Belə xəbərlərin həqiqətəuyğunluğunu qurumun rəsmi məlumatları da təsdiqləyir. Görünür ki, Elman Rüstəmovun Mərkəzi Bankdakı ”izləri” tədricən silinməkdədir. Məsələn, AMB-də Sədrin ofisi departamenti ləğv olunub. Bununla bağlı qurumun sədri Taleh Kazımov əmr imzalayıb. Həmin departamenti keçmiş baş bankirin nə səbəblə yaratdığı bəlli deyil. Əgər belə bir departamentə həqiqətən də ciddi ehtiyac var idisə, yeni rəhbərlik yəqin ki, onun ləğvini gərəkli bilməzdi.



Qeyd edək ki, Hazırda AMB-nin strukturuna 25 departament və 5 şöbə daxildir. Departamentlərin bir qismi və şöbələr bu günlərdə yaradılıb. Qurumda rəhbər dəyişikliyindən sonra 4 yeni şöbə yaradılıb. Bunlar Yeni binanın tikintisi şöbəsi, Lisenziyalaşdırma şöbəsi, İnformasiya və kibertəhlükəsizlik şöbəsi və Əməliyyat riskləri şöbəsidir. Onlardan ikisinin rəhbərliyinə təyinat olub. Belə ki, İnformasiya və kibertəhlükəsizlik şöbəsinə Elvin Şahverdiyev, Lisenziyalaşdırma şöbəsinə isə Elnur Allahverdiyev rəis təyin edilib.

Mərkəzi Bankın ”Korporativ İdarəetmə Departamenti”nin adı ”Korporativ idarəetmə və katiblik departamenti”nə dəyişdirilib. Bundan başqa, AMB-nin Maliyyə Monitorinqi Bölməsinin bazasında Maliyyə Monitorinqi Departamenti, əlavə olaraq Strateji və Layihə İdarəetməsi departamenti və Rezolyusiya şöbəsi yaradılıb. Məlumata görə, indiyə qədər Korporativ İdarəetmə Departamentinə rəhbərlik edən Arif Şirəliyev vəzifəsindən azad edilərək Strateji və Layihə İdarəetməsi departamentinin rəhbəri təyin olunub.

Görünən odur ki, Elman Rüstəmovdan sonra AMB-də islahatların iki istiqaməti var - dəyişikliklər həm struktur bölmələri, həm də kadrları əhatə edir. Baş bankın yeni başçısı həm optimallaşma siyasəti həyata keçirir, həm də mühüm postların rəhbərliyində əvəzləmələrə imza atır. Bu isə yuxarıda da qeyd etdiyimiz kimi, tamamilə gözlənilən idi - ən azı, Mərkəzi Bankın fəaliyyətindəki boşluqları və nöqsanları aradan qaldırmaq baxımından!

Yeri gəlmişkən, hazırda Mərkəzi Bankın 7 Baş direktoru var. İddialara görə, bu istiqamətdə də islahat gözlənilir. Beləliklə, baş direktorların sayının ən azı yarıbayarı azaldılması gözləniləndir. Hazırda həmin postları tutanlar aşağıdakılardır: Akşin Vəliyev, Ziya Əliyev, Vüqar Əhmədov, Əli Əhmədov, Toğrul Əliyev, Fərid Osmanov və Gülər Paşayeva.

Xatırladaq ki, Mərkəzi Bankın 38 yaşlı yeni sədri Taleh Kazımov bu vəzifəyə gətirildikdən sonra ölkədə makroiqtisadi və maliyyə sabitliyinin qorunması, dayanıqlı iqtisadi inkişafı dəstəkləyən pul siyasətinin həyata keçirilməsi kimi hədəflərindən bəhs etmişdi. O, maliyyə-bank sisteminin inkişafı, elektron ödəniş eko-sisteminin daha da gücləndirilməsi, ölkədə nağd pul tədavülünün keyfiyyətinin davamlı yüksəldilməsi və hər bir Azərbaycan vətəndaşının keyfiyyətli maliyyə, o cümlədən bank, kapital bazarları və sığorta xidmətlərilə əhatə olunması vəzifələrinin ”layiqli şəkildə icrasının təmin ediləcəyini” diqqətə çatdırmışdı.

Ekspertlər bu hədəflərə çatmaq üçün ölkənin baş bankındakı islahatların zəruriliyini vurğulayırlar. Onların fikrincə, ölkənin bank-maliyyə sistemində müsbət yeniliklər yalnız idarəetmə və kadr islahatları sayəsində mümkündür. Gələn məlumatlarda aydın olan odur ki, AMB-də bu proses başlayıb, indi qalır həmin prosesin sonunu və pozitiv nəticələrini gözləmək...

***Sənan Mirzə***

# Türk birliyinin yeni mərhələsi...

***Xəbər verildiyi kimi, avqustun 9-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Prezident Rəcəb Tayyib Ərdoğanın dəvəti ilə Türkiyəyə işgüzar səfəri baş tutub.***

Ölkə başçısının qardaş ölkəyə səfəri V İslam Həmrəyliyi Oyunları çərçivəsində baş tutsa da, həm də keçirdiyi görüşlərlə diqqət çəkib. Səfər çərçivəsində Prezident İlham Əliyev ilə Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan arasında təkbətək görüş keçirilib. Görüşlə bağlı informasiya az olsa da, tərəflərin əsas müzakirə mövzusunun Ermənistanın Qarabağda törətdiyi son təxribatlar və buna cavab olaraq Azərbaycan Ordusunun həyata keçirdiyi “Qisas” əməliyyatının olduğu məlumdur. Təsadüfi deyil ki, Rəcəb Tayyib Ərdoğan Qarabağdakı son hadisələrlə əlaqədar bir daha Türkiyənin dəstəyini ifadə edib və şəhidlərlə bağlı başsağlığı verib.



Görüşlə bağlı siyasi şərhçi Turan Rzayev deyib ki, “Qisas” əməliyyatından qısa müddət sonra Rəcəb Tayyib Ərdoğanın Prezident İlham Əliyevi Türkiyəyə dəvət etməsi faktiki olaraq rəsmi Ankaranın prosesləri yaxından izlədiyini göstərir. Onun fikrincə, bu mənada ölkə başçılarının görüşdə son hadisələr ətrafında müzakirə aparmaları və ortaq strateji addımları müzakirə etdiklərini demək olar: “Dövlət başçıları arasında həmçinin Türkiyə ilə Ermənistan arasında münasibətlərin normallaşdırılması üçün aparılan danışıqlardakı son durum müzakirə edilib. Əslində son zamanlar cəbhə xəttində artan erməni təxribatları Türkiyə-Ermənistan münasibətlərinə təsirsiz ötüşməyəcək. Rəsmi Ankara dəfələrlə bəyan edib ki, Türkiyə-Ermənistan münasibətlərinin normallaşması rəsmi İrəvanın atacağı konstruktiv addımlardan və ən əsası, Azərbaycanın mövqeyindən asılı olacaq. Yəni Ermənistanın gərginliyi artırması, destruktiv addımlar atması öz növbəsində Ermənistan-Türkiyə münasibətlərini hazırkı səviyyədə saxlayacaq. Ölkə başçılarının görüşündə digər diqqətçəkən məqam isə Ərdoğan və Əliyevin əl-ələ, gülərək söhbət etmələri idi. Bunu həm də Azərbaycan Ordusunun son antiterror əməliyyatına Türkiyənin tam və birmənalı dəstəyinin görüntüsü və dünyaya mesaj kimi qiymətləndirmək olar”.

Qeyd edək ki, Azərbaycan prezidenti İlham Əliyev Konyada İslam oyunları çərçivəsində türkiyəli həmkarı Rəcəb Tayyib Ərdoğanla yanaşı Kuzey Kıbrıs Türk Cumhuriyyətinin prezidenti Ersin Tatarla da görüşüb, onunla fikir mübadiləsi aparıb. Ersin Tatar “tviter” səhifəsində yazıb ki, İlham Əliyevlə görüş zamanı əlaqələrin inkişafını müzakirə edib.

Politoloq Elxan Şahinoğlu isə deyib ki, rəsmi Bakı Qarabağ məsələsinə görə uzun müddətdir Kıbrısın müstəqilliyini tanımır. Ehtiyat edilir ki, yunanlar Azərbaycan əleyhinə Qarabağ separatçıları ilə əlaqələr qura bilərlər: “Əslində Yunanıstanın və Kipr Yunan Respublikasının erməni separatizminə simpatiyası sirr deyil. Azərbaycan Qarabağda separatizmi tam bitirdikdən sonra Kuzey Kıbrıs Türk Cumhuriyyətini rəsmən tanımaq imkanı qazanacaq. Buna qədər Azərbaycanın Kuzey Kıbrısla sıx iqtisadi və turizm əlaqələrini inkişaf etdirməyə heç nə mane olmur. Mərhum dövlət başçısı Heydər Əliyev 1990-cı illərin sonunda Kuzey Kıbrıs Türk Cumhuriyyətinin əfsanəvi lideri Rauf Denktaşı Bakıya dəvət etmişdi. Bundan sonra Bakı-Lefkoşe təyyarə reysinin açılması gündəmdə idi, iş yarımçıq qaldı. Kıbrısın gözəl turizm məkanları var, Türkiyə üzərindən yay aylarında adada dincəlməyə gedən soydaşlarımız var. Kıbrıs universitetlərində təhsil alan tələbələrimiz az deyil. Ticarət əlaqələrini genişləndirmək üçün də imkanlar var. Ankaranın da Bakıdan istəyi Azərbaycanın Kuzey Kıbrıs Türk Cumhuriyyəti ilə təmasları və gediş-gəlişləri yoğunlaşdırmaqdır. Təsadüfü deyil ki, Türkiyə Cumhurbaşqanı Rəcəb Tayyib Ərdoğan İlham Əliyev və Ersin Tatarla birgə şəkil çəkərək paylaşmağı lazım bilib”.

Milli məclisin deputatı Sahib Alıyev isə fikirlərini “Unikal”la bölüşərkən deyib ki, son görüş mühüm proseslərin başlanğıcı, yaxud da davamı kimi qiymətləndirilməlidir: “Nikol Paşinyanın Vladimir Putindən sonra İran Prezidenti Rəisiyə də zəng etməyə ehtiyac duyması fikrimcə, onu göstərir ki, son günlər Qarabağ və Şərqi Zəngəzurda baş verənlərlə bağlı o, Kremldən umduğu dəstəyi ala bilməyib. Ala bilmədiyindən də özlərinə daha yaxın sandıqları İranın rəhbərliyinə şikayətlənib. Telefon danışığı zamanı Rəisinin dedikləri neçə aydır ki, rəsmi Tehranın bildirdiyinin təkrarıdır. Yenilik təkcə budur ki, ”Qafqazın siyasi coğrafiyasına edilən hər hansı bir dəyişikliklə barışmayacaq İran” sən demə özü də belə bir dəyişiklik etmək niyyətində deyil.

Xatırladaq ki, Qafqazın siyasi coğrafiyasında de-fakto dəyişiklik baş verəndə, Azərbaycan torpaqlarının 20%-ə yaxını işğal altında olanda molla rejimi işğalçı Ermənistana nəinki etiraz bildirir, hətta ona və separatçı ünsürlərə hərtərəfli yardım edirdi. İranın özünün Qafqazın siyasi coğrafiyasına dəyişiklik etmək niyyətində olamamasına gəldikdə isə orada ”kərimə”ləyənlərin nə istədiklərindən də, hara bağlılıqlarından da, kimdən tapşırıq aldıqlarından da yaxşı xəbərdarıq.

Azərbaycanın ”Qafqazın siyasi coğrafiyası”na yanaşmasına gəldikdə isə dövlət başçımız dəfələrlə bildirib ki, bizim heç kəsin torpağında gözümüz yoxdur və öz torpaqlarımız üzərində suverenliyimizi tam təmin etmək yolunda da kimsə qarşımızda dura bilməz”.

Millət vəkili onu da qeyd edib ki, İran rəsmiləri Qafqazın siyasi coğrafiyasının dəyişməsinə dözməyəcəklərini deyərkən ilk növbədə Qərbi Zəngəzurun gələcəyini nəzərdə tuturlar: “Amma oradakı din “təəssübkeş”ləri, imamların adı gələndə özəlliklə də kamera qarşısında gözlərindən leysan tökənlər nədənsə unudurlar ki, Xamneyinin sayın Ərdoğanla görüşdə haylarla “min illik əlaqə yolu” kimi təqdim etdiyi həmin torpaqlarda ötən əsrin 90-cı ilinə kimi məhərrəmlikdə ya Allah, ya Məhəmməd, ya Əli, ya Hüseyn səsləri gəlir, mərsiyə deyilirdi. İndi ancaq kilsə zənglərini, bir də “Astvats xristos” sədalarını eşitmək olur. Məhərrəmlikdə mərsiyə yerinə “ktsorot” və “şarakan” oxunur. Rusiyanın Federal Sərhəd Xidmətinin son açıqlamasında isə bildirilir ki, o “min illik əlaqə yolu”ilə İrandan Ermənistana narkotik daşınır. Yəni, Qərbi Zəngəzur Azərbaycanın işğal altındakı torpaqlarının bir zamanlar oynadığı rolu oynamağa başlayır, narkotik qaçaqmalçılığının əsas marşrutuna çevrilir. Görünür, bəziləri üçün oranın strateji önəmi həm də bundadır. Fəqət həmin işğal altındakı torpaqlarımız necə geri qaytarıldısa, kimin nə deməsindən asılı olmayaraq, mən əminəm ki, azərbaycanlılar da bir gün Qərbi Zəngəzur qarışıq didərgin düşdükləri bütün yurd yerlərinə o cür qayıdacaqlar. Sonda onu da deyim ki, Ermənistan baş naziri İran Prezidenti Rəisi ilə telefonla danışdığı zaman Azərbaycanın lideri Türkiyədə səfərdə idi. Cənab İlham Əliyevlə sayın Ərdoğanın oradakı görüşlərindən paylaşılan şəkil fikrimcə, təkcə müttəfiqliyin yox, həm də öz güclərinə və haqlılıqlarına əminliyin rəsmi idi”.

***Z.Məmmədli***



## Sabiq bələdiyyə sədrinin bacısından qaziyə qarşı dələduzluq

***Külli miqdarda dələduzluqda ittiham olunan Binəqədi rayon bələdiyyəsinin keçmiş sədri Aytac Əliyeva və bacısı İlknur Əliyevanın (Turkut) cinayət işi üzrə məhkəmə araşdırması davam etdirilib.***

Bakı Ağır Cinayətlər Məhkəməsində hakim Rasim Sadıxovun sədrlik etdiyi iclasda zərərçəkmiş Tural Təhməzli ifadə verib.

Zərərçəkmiş İlknur Turkuta işə düzəlmək məqsədi ilə müraciət etdiyini, bunun müqabilində isə ittiham olunan şəxsin işə düzəldəcəyi vədi ilə ondan 2 min manat pul aldığını deyib.

Tural Təhməzli məhkəmədə Vətən müharibəsi iştirakçısı olduğunu bildirib.

Hakim Rasim Sadıxov təqsirləndirilən şəxsdən zərərçəkmişə dəymiş ziyanı qısa müddətdə ödənilməsini istəyib: “Digər zərərçəkmişləri başa düşdük ki, dəymiş ziyanın məbləği çoxdur. Bu zərərçəkmişdə isə cəmi 2 min manat puldur, özü də müharibə iştirakçısıdır”.

İttiham olunan şəxs Tural Təhməzliyə dəymiş ziyanı ödəyəcəyini söz verib. Proses avqustun 23-də davam etdiriləcək

Xatırladaq ki, Binəqədi rayon bələdiyyəsinin keçmiş sədri Aytac Əliyeva bacısı İlknur Əliyeva (Turkut) ilə birgə qızıl alveri etmək məqsədilə vətəndaşlara qarşı 1 milyon manata yaxın dələduzluqda təqsirləndirilirlər.

Onlar barəsində Cinayət Məcəlləsinin 178.3.2-ci (Dələduzluq, külli miqdarda ziyan vurmaqla törədildikdə) maddəsi ilə cinayət işi başlanılaraq barələrində həbs qətimkan tədbiri seçilib.

İttiham olunan İlknur Əliyeva bir müddət əvvəl ev dustaqlığına buraxılıb.

# Prezident Gədəbəyə yeni icra başçısı təyin etdi - Sərəncam



***Orxan Çingiz oğlu Mürsəlov Gədəbəy Rayon İcra Hakimiyyətinin başçısı təyin edilib.***

"Unikal" xəbər verir ki, bununla bağlı Prezident İlham Əliyev sərəncam imzalayıb. O, bu təyinatadək Prezident Administrasiyasının Ərazi-təşkilat məsələləri şöbəsinin 8-ci ərazi sektorunun Baş məsləhətçisi vəzifəsində çalışıb.

O.Mürsəlov PA-da qərb bölgəsinin kuratoru kimi Şəmkir, Samux, Ağstafa, Qazax, Gədəbəy rayonlarında keçirilən tədbirlərin əksəriyyətində iştirak edib.

Qeyd edək ki, Gədəbəyin icra başçısı postu 2021-ci il oktyabrın 5-dən boş qalmışdı.

# Azərbaycan və Ermənistan rəsmilərinin görüşü gözlənilir



***"Bu ayın (avqust-red) sonuna qədər Azərbaycanla Ermənistan arasında üçtərəfli formatda görüş təşkil olunması planlaşdırılır".***

"Unikal" xəbər verir ki, bunu Rusiya Xarici İşlər Nazirliyinin (XİN) İnformasiya və Mətbuat Departamentinin direktor müavini İvan Neçayev deyib.

"Bununla bağlı tərəflərlə müzakirə aparılır. Üçtərəfli təmaslar nəzərdə tutulub. Bu barədə daha ətraflı məlumat veriləcək. Tərəflər arasında uyğun zamanda görüş təşkil olunacaq", - Rusiya XİN rəsmisi bildirib.

# Anar Kərimovdan yeni təyinat



***Gəncə Dövlət Filarmoniyasına yeni direktor təyin edilib.***

Bu barədə "Unikal"a Gəncə Dövlət Filarmoniyasından məlumat verilib.

Bildirilib ki, mədəniyyət naziri Anar Kərimovun əmri ilə Rəşad Rauf oğlu Yusifov Gəncə Dövlət Filarmoniyasının direktoru vəzifəsinə təyin edilib.


Baş redaktor:
Zaur Əhməd

Turanbank" ASC Binəqədi filialı.
H/h: AZ70TURA40050054644700110944
M/H: AZ26NABZ01350100000000027944
Kodu: 504692
Şəhadətnamə № 3150
Ünvan: 8 mk-r. Ə.Naxcıvani 5N
Tel./Fax:(012) 561-65-53

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnmiş və "Futbol+" servis mətbəəsində çap olunmuşdur

Sifariş 252.
Tiraj:1700


# Erməni deputatlar Qarabağa qanunsuz səfər etdi

***Ermənistan parlamentinin müxalif "Ermənistan" partiyasının bir qrup deputatı Qarabağa qanunsuz səfər edib.***

"Unikal" erməni KİV-lərinə istinadən xəbər verir ki, dünən də "Mənim namusum var" fraksiyasının deputatı Tiqran Abramyan da Xankəndinə gedib. "Bizə məlumat verdilər ki, bu gün səhər 5-6 deputat Artsaxa (Xandəndi - red.) yola düşüb və artıq sərhədi keçiblər. Sərhədi keçən müxalifətçilərlə əlaqə saxladıq, dedilər ki, hələ çatmayıblar, suallarımızı sonra cavablandıracaqlar. Bizə bildirdilər ki, Ağavnoya (Zabux kəndi - red.) yaxınlaşırlar", - məlumatda qeyd olunub.

***Ağarza Elçinoğlu***

# Azərbaycan Ordusu Buzdux yüksəkliyində - Son durum

***Azərbaycan Ordusu tərəfindən ərazidə aparılan dəqiqləşdirmələr nəticəsində nəzarətə götürülən Buzdux və bir sıra digər əhəmiyyətli hakim yüksəkliklərdə mühəndis təminatı üzrə tapşırıqlar yerinə yetirilir.***



Bu barədə "Unikal"a Müdafiə Nazirliyindən məlumat verilib.

Bölmələrimiz tərəfindən əlverişli hədlərdə yeni mövqelərin qurulması və dəqiqləşdirilmiş mövqelərə təminat yollarının çəkilməsi üzrə mühəndis işləri görülür.

Azad edilən ərazi və hakim yüksəkliklərdə mühəndis təminatı üzrə zəruri tədbirlər davam etdirilir.

# Kreditlərin verilməsi qaydası dəyişdi

***Azərbaycan Mərkəzi Bankı (AMB) ölkədə fəaliyyət göstərən banklara verdiyi kreditlərin şərtlərini dəyişdirib.***

"Unikal" xəbər verir ki, bununla bağlı AMB-nin İdarə Heyətinin sədri Taleh Kazımov "Azərbaycan Respublikasının Mərkəzi Bankı tərəfindən banklara kreditlərin verilməsi Qaydaları"nda dəyişiklikləri təsdiqləyib.

Dəyişikliyə əsasən, yenidənmaliyyələşdirmə kreditləri hərrac vasitəsilə və ya hərracdan kənar verilə bilər: "Bundan sonra 180 gündən çox olmayan müddətə verilən yenidənmaliyyələşdirmə kreditləri Mərkəzi Bankın pul siyasətinin həyata keçirilməsi məqsədilə birbaşa və ya dolayı hərraclar vasitəsilə ilə veriləcək.

Banklara verilən kreditlər üzrə təminat hərracın keçirildiyi gündən 3 iş günü (əvvəl 5 gün nəzərdə tutulurdu) ərzində rəsmiləşdirilmədikdə kreditin verilməsindən imtina olunacaq.

Digər dəyişikliyə görə, Mərkəzi Bankın İdarə Heyətinin qərarı ilə təminat əsasında 360 gündən çox olmayan müddətə hərracdan kənar yenidənmaliyyələşdirmə kreditləri verilə bilər. Bu kreditlərin verilməsinin digər şərtləri İdarə Heyətinin qərarı ilə müəyyən olunur.




AMB-nin Hüquq departamentinə Qərarın 3 gün müddətində Hüquqi Aktların Dövlət Reyestrinə daxil edilməsi üçün Ədliyyə Nazirliyinə təqdim edilməsi tapşırılıb.

# 4-cü doza vaksin məcburi olacaq? - Açıqlama

***Azərbaycanda yoluxma hallarının artması fonunda koronavirus əleyhinə 4-cü doza vaksinin məcburi olacağı deyilir. İddia olunur ki, payıza doğru yoluxmalar daha da artacaq və əhali arasında 4-cü doza vaksinlərin vurulması prosesinə start veriləcək.***

TƏBİB-in infeksion xəstəlikləri üzrə işçi qrupunun rəhbəri, həkim-infeksionist Vasif Əliyev vaksinasiya ilə bağlı iddialara aydınlıq gətirib. Həkim bildirib ki, təkcə Azərbaycanda deyil, ümumilikdə dünyada dördüncü doza vaksinlə bağlı fikirlər müxtəlifdir.




"Ancaq hazırkı vəziyyəti nəzərə alaraq deyə bilərəm ki, Azərbaycanda 4-cü doza vaksin məcburi olmayacaq. Təbii ki, hər kəs könüllü şəkildə 4-cü doza vaksini qəbul edə bilər. Lakin önümüzdəki günlərdə yoluxmada fərqli rəqəmlər olduğu zaman başqa qərarlar da qəbul oluna bilər", - deyə TƏBİB nümayəndəsi vurğulayıb.

Qeyd edək ki, Azərbaycanda indiyədək vurulan vaksinlərin ümumi sayı 13 832 547, birinci mərhələ üzrə vaksinasiya olunanların ümumi sayı 5 369 091, ikinci mərhələ üzrə vaksinasiya olunanların sayı 4 859 097, üç və daha çox doza vaksin vurduranların sayı 3 348 027, pozitiv nəticədən sonra buster doza üzrə vaksinasiya olunanların sayı isə 256 350-dir.

# Məktəbəhazırlıq qruplarının tətil günləri və tədris planı açıqlandı

***Məktəbəhazırlıq qruplarında məşğələlər hər il oktyabrın 1-də başlayır və növbəti il mayın 31-də başa çatır.***

"Unikal" xəbər verir ki, bu, Elm və Təhsil Nazirliyinin dövlət ümumi təhsil müəssisələrində yaradılan məktəbəhazırlıq qruplarının 2022-2023-cü tədris ili üçün tədris (məşğələ) planının təsdiqi barədə əmrində öz əksini tapıb.

Qeyd olunub ki, dərs ili iki yarımilə bölünür:

I yarımil: 1 oktyabr - 26 yanvar;

II yarımil: 1 fevral - 31 may.

Bildirilib ki, dərs ili ərzində aşağıdakı tətillər müəyyən olunur:

payız tətili: 16-20 noyabr (5 gün);

qış tətili: 27-31 yanvar (5 gün);

əlavə tətil: 1-5 may (5 gün).

Dövlət ümumi təhsil müəssisələrində yaradılan məktəbəhazırlıq qruplarının 2022-2023-cü tədris ili üçün tədris (məşğələ) planı təsdiq edilib.



Bu arədə Azərbaycan Respublikasının Elm və təhsil nazirinin səlahiyyətlərini müvəqqəti icra edən, nazir müavini Firudin Qurbanov əmr imzalayıb.

# Bəzi məmurlar Emin Əmrullayevi çətin vəziyyətdə qoyur

## Elm və Təhsil Nazirliyinin bir sıra vəzifəli şəxsləri ilə bağlı tənqidlər, şikayətlər niyə artıb?

***Son zamanlar ölkə mətbuatında Elm və Təhsil Nazirliyi (ETN) ilə bağlı şikayət xarakterli materiallar çoxalıb, üstəlik, təhsil ekspertlərinin tənqidi çıxışları intensivləşib. Görünən odur ki, adıçəkilən nazirliyin bir sıra aparıcı kadrları hələ də yeni dövrün çağırışları ilə ayaqlaşmaqda çətinlik çəkir, ölkə rəhbərliyinin qarşıya qoyduğu tələblərə uyğun fəaliyyət göstərmək yerinə Misir Mərdanov dönəminin normativləri ilə düşünməyi və hərəkət eləməyi, obrazlı şəkildə desək, ”köhnə hamam, köhnə tas” prinsipi ilə işləməyi üstün tuturlar. Təkcə bir məqama göz ataq. Təhsil eksperti Kamran Əsədov dünən ”Facebook” sosial şəbəkəsindəki şəxsi səhifəsində yazıb: ” Mənə məktəblərə verilən və məktəbin idman zalında tamaşaçıların əyləşməsi üçün nəzərdə tutulan iki növ oturacağın fotusunu göndəriblər. Səthi və ayaqları adi oduncaqdan düzəldilib boyadılan 5 nəfər şagirdin oturması üçün nəzərdə tutulan belliyi olmayan taxta oturacağın qaimədə göstərilən qiyməti 270 manatdır. Nazik dəmir profildən ayaqları, səthi taxta reykadan olub 3 nəfərin oturması üçün nəzərdə tutulan belliyi olmayan oturacaq da eyni qiymətə məktəblərə verilib. Ölkənin bir-çox məktəblərində şagirdlər üçün stol-stul və lövhə kimi adi sinif ləvazimatlarının çatışmadığı, dərsliklərin belə çatışmadığı bir şəraitdə bu avadanlıqları məktəblərə verməyin adı nədir?”***



O bildirib ki, bu kustar üsulla sexlərdə hazırlanan oturacaqların qaimədə göstərilən qiymətinə azı 5 beləsini düzəltdirmək olar: “Digər bir fakt isə adamı lap dəhşətə gətirir. Ölkədəki 44 günlük müharibənin qələbəsini əks etdirən və məktəblərə verilən 3-4 kvadrat metrlik və çərçivəyə alınmış banerin də qaimə qiyməti 350 manatdır... Bunlar hansı vicdanla insanlarımızın qanı tökülən ərəfədə milyonlarla dövlət vəsaitini israf ediblər? Bu banerin maya dəyəri faktura və qaimədə göstərilən qiymətdən ən azı 5 dəfə ucuzdur”.

Ekspertin iddiasına görə, adıçəkilən nazirliyin məktəblərə verdiyi mal-material və təchizatlar adətən kustar üsulla və sexlərdə hazırlanır. Burada məqsəd həmin aktivlərin qiymətini və maya-dəyərini hesablamağın maraqlı tərəflərə əlçatmaz edilməsi və onlarn rahatlıqla maya dəyərindən dəfələrlə baha göstərilə bilməsidir. Bunlardansa heç olmasa faktiki qiyməti maya-dəyərindən 3 dəfə baha göstərilən 250 manatlıq parta və lövhələrdən məktəblərə verseydilər adama təsir etməzdi”.

Düzdür, yazı çapa hazırlananadək ETN-dən bu deyilənlərlə bağlı hər hansı açıqlama gəlməmişdi. Lakin istənilən halda təhsil ekspertinin sadaladığı faktlar təəccüb və təəssüf doğurur. Təəccüb doğurur ona görə ki, ölkədə korrupsiyaya, rüşvətə qarşı genişmiqyaslı mübarizə aparıldığı, bu cür qanunsuz əməllərə yol verənlər ciddi şəkildə cəzalandırıldığı halda bəziləri hələ də, belə görünür, heç nədən qorxmadan öz bildikləri kimi davranmağa davam edirlər.

Təəssüf doğurur ona görə ki, Misir Mərdanov vəzifədən azad edildikdən sonra adıçəkilən nazirlikdə kifayət qədər ciddi islahatlar aparılıb, kadr dəyişiklikləri baş verib, yüksək savadlı, xaricdə təhsil almış şəxslər önə çəkilib, müxtəlif önəmli postlara gətirilib, lakin deyəsən, həmin islahatların davam etdirilməsi qaçılmazdır, çünki bəziləri üçün hələ yeyinti, mənimsəmə başlıca iş metodu olaraq qalır. Özü də təhsil kimi millətimizin, dövlətimizin gələcəyi ilə bağlı olan, kifayət qədər əhəmiyyətli, strateji bir sahədə! Bu cür kadrların varlığı nazir Emin Əmrullayevi də çətin vəziyyətdə qoyur. Nazir çıxışlarında Azərbaycan təhsilinin müasir, modern standartlara uyğunlaşdırılması istiqamətində qarşıya qoyulan hədəflərdən danışdığı halda, onun rəhbəri olduğu qurumda kimlərsə Misir Mərdanov dövrünün fəaliyyət metodları ilə işləməyi, ”köhnə hamam, köhnə tas” prinsipi ilə hərəkət etməyi, nəticə etibarilə isə əldə edilən uğurları şübhə altına almağı üstün tuturlar.

Belə kadrların müəyyənləşdirilib onlarla yolların ayrılması olduqca vacibdir. Əks halda Elm və Təhsil Nazirliyi rəhbərliyinin xoş niyyəti cəmiyyətdə və mediada müzakirə, mübahisə mövzusuna çevrilməyə davam edəcək. Aydın görünür ki, adıçəkilən nazirlikdə kadr islahatlarının, dəyişikliklərinin davamlılığı şərtdir. Yalnız bu halda ETN-lə bağlı xoşagəlməz məlumatların, iddiaların tamamilə aradan qalxmasına nail olmaq mümkündür.

*Sənan Mirzə*

# Rusiya XİN-dən “Laçın dəhlizi” ilə bağlı açıqlama

***“Laçın dəhlizi” ətrafında yaranmış vəziyyət Rusiya, Ermənistan və Azərbaycan liderlərinin 10 noyabr 2020-ci il tarixli üçtərəfli bəyanatının 6-cı bəndi əsasında həll edilməlidir.***

Bunu Rusiya Xarici İşlər Nazirliyinin İnformasiya və Mətbuat Departamentinin direktor müavini İvan Neçayev deyib. Onun sözlərinə görə, üçtərəfli bəyanatın 6-cı bəndində qeyd olunur ki, tərəflərin razılığı ilə yaxın üç ildə “Laçın dəhlizi” ilə Qarabağ və Ermənistan arasında əlaqəni təmin edən yeni nəqliyyat marşrutunun tikintisi planı müəyyən ediləcək.

“Bu marşrutu qorumaq üçün Rusiya sülhməramlı kontingentinin sonradan yenidən yerləşdirilməsi nəzərdə tutulub”, - Neçayev xatırladıb.

Onun sözlərinə görə, regiondakı vəziyyət hələ də Rusiyanın diqqət mərkəzindədir. Neçayev xatırladıb ki, avqustun 4-də Rusiya Xarici İşlər Nazirliyi Qarabağ münaqişəsi zonasında vəziyyətin gərginləşməsi ilə bağlı bəyanat yayıb və hər iki ölkəni təmkinli olmağa və atəşkəs rejiminə riayət etməyə çağırıb.

Rusiya XİN-in nümayəndəsi əlavə edib ki, Moskva bütün məsələlərin Rusiya, Azərbaycan və Ermənistan liderlərinin 10 noyabr 2020-ci il, 11 yanvar və 26 noyabr 2021-ci il tarixli bəyanatlarına uyğun olaraq həll edilməsinin zəruriliyini bir daha təsdiqləyir.

# Türkiyə və Ermənistan xüsusi nümayəndələrinin görüşünün vaxtı bilindi

***Türkiyə və Ermənistan münasibətlərinin normallaşması üzrə xüsusi nümayəndələr Serdar Kılıç və Ruben Rubenyan arasında 5-ci görüşün tarixi məlum olub.***

”Unikal” Türkiyə mətbuatına istinadən xəbər verir ki, bu barədə Türkiyənin Xarici İşlər Nazirliyindən bildirilib.

Xüsusi nümayəndələrin növbəti görüşü sentyabrda keçiriləcək. “Proseslər kövrəkdir, daimi sülh təmin edilməlidir”, - nazirlikdən qeyd olunub.

# FHN-dən hava ilə bağlı əhaliyə MÜRACİƏT

***Fövqəladə Hallar Nazirliyi gözlənilən hava şəraiti ilə əlaqədar əhaliyə müraciət edib.***

”Unikal” FHN-in saytına istinadən xəbər verir ki, müraciətdə deyilir:

”Milli Hidrometeorologiya Xidmətinin məlumatına görə, yaxın günlərdə ölkə ərazisində havanın temperaturun yüksələcəyi, bəzi yerlərdə 42 dərəcəyə çatacağı gözlənilir. Belə hava şəraitində kiçik ehtiyatsızlıq və ya diqqətsizlik müxtəlif məkanlarda, xüsusilə açıq sahələrdə və meşə massivlərində yanğınlarla nəticələnə bilər, həmçinin kondisionerlərə tələbatın yüksəlməsi elektrik naqillərinin yüklənib sonda qısaqapanmaya səbəb olma riskini artırır. Bununla əlaqədar Fövqəladə Hallar Nazirliyi əhaliyə müraciət edərək, yüksək temperaturun yanğın təhlükəsini artırdığını nəzərə alaraq yanğın təhlükəsizliyi qaydalarına ciddi əməl etməyə çağırır.

Həmçinin, günvurma təhlükəsindən qorunmaq üçün belə günlərdə açıq havada, o cümlədən çimərliklərdə günəş şüaları altında çox qalmamaq, habelə açıq rəngli, yüngül, xüsusilə pambıq parçadan olan geyimlərdən istifadə etmək, daha çox kölgədə və ya sərin yerdə qalmaq və bol maye qəbul etmək tövsiyə olunur. Unutmayın: Qaydalara biganəlik - həyatımıza təhlükədir!”

FHN təhlükə zamanı 112-yə zəng etməyi tövsiyə edib.



# “Azərbaycanda əmlak amnistiyası lazımdır”

## Natiq Cəfərli: “Əgər kimsə ev tikirsə, buna hansısa dövlət qurumları nəzarət etməyibsə, deməli burada dövlətin də məsuliyyəti var”

***REAL Partiyasının icra katibi, iqtisadçı ekspert Natiq Cəfərli ”Unikal”a müsahibə verib. O, ərzaq məhsullarının qiymətinin bahalaşmasından, manatın məzənnəsinin ilin sonuna qədər necə olacağından, sənədsiz evlərin sənədləşdirilməsi üçün hansı addımların atılmalı olduğundan danışıb.***

-Bu günlərdə sosial şəbəkədəki paylaşımınızda qeyd etmişdiz ki, 2022-ci ilin ilk 7 ayında Ermənistana 3 nəfər Azərbaycan vətəndaşı turist kimi səfər edib. Bu, rəsmi şəxslərin tədbir çərçivəsində səfərinin turist səfəri kimi qeyd edilməsi ola bilərmi?

-Bu, Ermənistan tərəfinin rəsmi məlumatı idi. Məlum olur ki, ötən aylarda Azərbaycandan 3 deputat İrəvana səfər etmişdi. Yəqin ki, onları turist kimi qeyd ediblər. Bu ölkəyə rəsmi səfərə gedənlərin turist kimi qeydiyyatını aparıblar. Çünki ayrı-ayrılıqda bunun qeydiyyatını aparmaq çətin olar. Çox güman ki, bu deputatların səfəri ilə bağlıdır. İndiki zamanda Azərbaycan vətəndaşının Ermənistana turist kimi səfər etməsi o qədər də məqsədəuyğun görünmür.

-Son günlər unun qiymətinin yenidən bahalaşacağı ilə bağlı fikirlər səsləndirilir. Unun qiymətində artımların olacağı gözlənilirmi? Bu öz növbəsində çörəyin qiymətinin bahalaşmasına səbəb ola bilərmi?

-Son 3 ildə dünyada taxılın qiyməti sürətlə artıb. 2019-cu ildə taxılın bir tonunun qiyməti 180-190 dollar idi. Rusiyanın Ukraynaya təcavüzü başlayanda isə qiymət 440-460 dollara qədər qalxmışdı. Türkiyənin vasitəçiliyi ilə Ukraynadan taxılın ixracatına müəyyən qədər yolun açılması qiymətləri 400 dollar və ondan bir az da aşağı endirdi. Ukrayna taxılının bazara çıxarılması ilə müəyyən dərəcədə sabitlik yarandı. Azərbaycanda isə yerli istehsal azdır. Biz özümüzü 25 faiz taxılla təmin edə bilirik. Yerdə qalan hissə isə xaricdən alınır. İdxal etdiyimiz taxılın 80-85 faizi Ruisyanın payına düşürdü. Bu il isə Rusiyadan daha az taxıl alınışı. Qazaxıstandan taxıl alışı artıb. Bu ölkənin taxılının qiyməti isə Rusiyaya nisbətən bahadır. Ona görə də bir müddət sonra unun qiymətində artım ola bilər. Bu isə çörək və un məmulatlarının qiymətinə təsir göstərəcək. Azərbaycanda dotasiyalar ləğv edilib. Əvvəllər un istehsalçılarına hər tona görə 25 manat dotasiya verilirdi. Hökumət bunu ləğv etdi. Dotasiyalar yoxdursa, baha taxıl baha un, baha un isə yüksək qiymətə un məmulatları deməkdir. Bu qiymət artımı gözləniləndir.

-Ümumilikdə, qiymətlərin artması ən çox müzakirə olunan məsələlərdən biridir. Bu il ərzində hansı məhsulların qiyməti daha çox artıb və növbəti müddətdə hansı malların qiymətinin artacağı proqnozlaşdırılır?

-Azərbaycanda rəsmi inflyasiya 13 faizə yaxındır. Ərzaq inflyasiyası isə 20 faiz civarındadır. Ərzaq məhsullarının qiymətində daha çox artım müşahidə edilir. Son bir neçə ayda bitki yağlarının qiyməti sürətlə artıb. Azərbaycanda qiymət artımının bir neçə səbəbi var. Obyektiv səbəbi dünyada da qiymətlərin artması və inflyasiyanın sürətlənməsidir. Subyektiv səbəblər isə daha çoxdur. Azərbaycanda yerli istehsalın zəif olması, inhisarçılıq meylləri, gömrük orqanlarının səhv fəlsəfə ilə yönləndirilməsi, daxili bazarda qiymət artımına səbəb olan əsas amillərdəndir. Qiymət artımlarının belə sürətlə artmasına baxmayaraq, hökumət ondan asılı olan addımları atmaq istəmir. REAL Partiyası olaraq bir neçə həftə əvvəl təklif etdik ki, ƏDV 18 faizdən 2 faizə endirilsin. Bu, birdən-birə 16 faiz azalma deməkdir. Biz gündəlik ərzaq məhsullarını daha çox supermarketlərdən alırıq. Orada isə aldığımız məhsulların üzərinə 18 faiz ƏDV gəlir. Bu gün 50 manatlıq nə isə alırıqsa, 9 manat ƏDV ödəyirik. Əgər hökumət bizim təklifimizi qəbul etsə, 50 manatlıq məhsul alarkən, 9 manat deyil, 1 manat ƏDV ödəməli olacağıq. Bu da Azərbaycan ailələrinin büdcəsinə müsbət təsir göstərər.

-Neftin qiyməti əvvəlki aylarla müqayisədə azalıb. Növbəti müddətdə dünya bazarında neftin qiymətinin necə dəyişəcəyi gözlənilir?

-Dünyada neftin qiymətinin 90-100 dollar ətrafında sabitləşməsi gözlənilən idi. Belə ki, neftin qiyməti 130-135 dollara qədər yüksəlmişdi. Qiymətlər müəyyən dərəcədə düşməli idi. OPEC+ təşkilatı hasilatın daha çox artırılması ilə bağlı qərar verdi. Səudiyyə Ərəbistanı hasilatı artıracaq. ABŞ Prezidenti Co Baydenin bu ölkəyə səfəri buna təsir göstərdi. Ard-arda belə hadisələr baş verdi ki, neftin qiyməti 95 dollara qədər ucuzlaşdı. Bu o demək deyil ki, neftin qiyməti ucuzdur. Hazırda qiymət bahadır. İki il əvvələ baxsaq, pandemiya yeni başlayanda neftin qiyməti 14-16 dollara qədər azalmışdı. Neftin qiymətinin ucuzlaşması nisbi anlayışdır. İndiki halda əvvəlki qiymətlərə görə ucuzlaşıb. Amma neftin illik ortalama qiyməti hələ də 100 dollar ətrafındadır.

-Hər zaman özünüz də çıxışlarınızda qeyd edirsiz ki, Azərbaycan manatı kağız neftdir. Növbəti dövrlərdə neftin qiyməti ucuzlaşarsa, bu, manatın məzənnəsinə necə təsir edəcək və bu ilin sonuna qədər məzənnədə hansısa dəyişiklik gözlənilirmi?

-Təbii ki, Azərbaycan manatı birbaşa neftdən asılıdır. İndiki halda manata hansısa təzyiqlərin olacağını düşünmürəm. Azərbaycanın büdcə profisiti, xarici ticarət balansı kifayət qədər yüksəkdir, müsbət saldo mövcuddur. Ona görə də neftin qiymətində müəyyən ucuzlaşmaların Azərbaycan manatına təsir göstərcəyini düşünmürəm. Bu il neftin qiymətinin ortalama 100 dollar civarında olacağını gözləmək olar. İlin əvvəlindən iyul ayının ortalarına qədər neftin qiyməti 100 dollardan yüksək olub. Ona görə də Azərbaycan neftinin qiyməti ilin sonuna qədər 100 dollardan yuxarı olacaq. Bu bir daha onu göstərir ki, Azərbaycan iqtisadiyyatındakı dalğalanmalar, manatın məzənnəsinə təsirlərdə neft faktorunun rolu yüksəkdir. Müstəqillik əldə edəndən bəri iqtisadiyyatımız neftdən asılıdır. Ən böyük problem budur ki, neftdən asılılığı azalda bilmirik.

-Uzun illərdir ki, sənədsiz torpaq sahələrinin və evlərin dövlət reyestrinə daxil edilməsi problemi gündəmdədir. Belə ki, bir çox evlər bu günə qədər sənədsizdir, vətəndaşlar onların üzərində mülkiyyət hüququna malik deyil. Sənədsiz evlərin sənədləşdirilməsi prosesi niyə gecikir?

-Azərbaycanda sənədsiz evlərlə bağlı illərdir davam edən böyük problem var. Bununla bağlı müxtəlif rəqəmlər səslənir. Ən yumşaq rəqəmlərlə söyləsək, Azərbaycanda təqribən 300-400 minə yaxın ev sənədsizdir. Səndəsiz evlər daha çox Bakı və Abşeron rayonunun ərazisindədir. Azərbaycan hökuməti bunu həll etməlidir. Beynəlxalq standartlara görə, vətəndaş hətta qeyri-qanuni ev tikibsə, dövlət ondan işıq, su, qaz pulu alırsa, demək onun mülkiyyət hüququnu tanıyır. Əgər həmin şəxs evi qeyri-qanuni tikmişdisə, dövlət nə üçün ona kommunal xətləri çəkib və onun pulunu alırdı? Deməli, kommunal xidmətlərdən istifadə olunursa, həmin evin mülkiyyət hüququ yaranır. Dəfələrlə təklif etmişik ki, Azərbaycanda əmlak amnistiyası lazımdır. Məsələn, müəyyən olunmalıdır ki, 2022-ci ilin dekabr ayının 31-nə qədər olan sənədsiz evlərin hamısı amnistiyaya düşüb və onlara sənəd verilsin. Növbəti ildən isə evlərin tikintisinə sərt nəzarət etmək lazımdır ki, qeyri-qanuni tikililərə yol verilməsin. Çünki Azərbaycanda qeyri-qanuni tikililərin özü belə bir növ qanunidir. Belə ki, bu tikililər ya bələdiyyə kağızı ya da kimlərinsə icazəsi ilə tikilir. Evində balaca bir pəncərə açmaq istəsən 5-6 idarədən qapını döyəcəklər. Əgər kimsə ev tikirsə, buna hansısa dövlət qurumları nəzarət etməyibsə, deməli burada dövlətin də məsuliyyəti var. Ona görə də əmlak amnistiyası elan olunmalı və bu məsələ birdəfəlik həll edilməlidir.



***Anar Kəlbiyev***

# Səfər Mehdiyevin "həyasızlıq" ölçüsü

## Keçmiş komitə sədrinin vəzifə borcunu layiqincə yerinə yetirənlərdən zəndeyi-zəhləsi gedirmiş...

***Yola salmaq üzrə olduğumuz həftənin ən çox müzakirə edilən mövzularından biri Dövlət Gömrük Komitəsinin (DGK) sabiq sədri, gömrük xidməti general-polkovniki Səfər Mehdiyevin yol polisi tərəfindən saxlanılmasına dair videogörüntülər oldu.***

Unikal.org-un məlumatına görə, 90-AA-978 dövlət qeydiyyat nişanlı "Mercedes Galendewagen" markalı avtomobilindən düşən sabiq DGK sədri Yol Patrul Xidmətinin əməkdaşları ilə mübahisə edib.

O, YPX əməkdaşına "Sən nə həyasız adamsan? Görmürsən general-polkovnik Mehdiyevdir?" deyib.

Qeyd edək ki, sözügedən video Səfər Mehdiyevin Dövlət Gömrük Komitəsinin sədri olduğu vaxtda lentə alınıb.



Yüksək post tutan bir şəxsin öz xidməti vəzifəsini yerinə yetirən polis əməkdaşı ilə bu tonda və səviyyədə danışması təbii ki, ilk növbədə, çox üzücüdür. Nə qanunlara, nə də ədəb qaydalarına sığmır.

Digər tərəfdən isə məlum videogörüntülər Səfər Mehdiyevin idarəçilik təfəkkürünü ortaya qoyur, onun həyasızlıq ölçüsünün, kriteriyasının nədən ibarət olduğunu, vaxtilə DGK-ni hansı prinsiplərlə idarə etdiyini göstərir. Bir az da dəqiqləşdirək: sabiq komitə sədrinin avtomobilini saxlayan yol polisi, yuxarıda da vurğuladığımız kimi, öz vəzifə borcunu yerinə yetirir. Lakin Mehdiyev bundan qəzəblənir! Belə çıxır ki, həmin polis əməkdaşı Səfər müəllimin vəzifəsini, rütbəsini nəzərə alıb onun təlimatdan kənar hərəkətinə göz yummalı imiş. Elə DGK sədri olarkən bu qurumda qanunsuzluqlara, korrupsiyaya, rüşvətə göz yumulduğu kimi, hətta "yaşıl işıq" yandırıldığı kimi!

Uzağa getməyək, uzun müddətdir ki, istər irili-xırdalı sahibkarların, istərsə də sıravi vətəndaşların ən çox gileyləndiyi qurumlardan biri olan Dövlət Gömrük Komitəsinin rəhbərliyində həbslər aparıldı. Komitənin bir sıra yüksək vəzifəli şəxsləri, generalları hüquqi məsuliyyətə cəlb edildi. Ortaya sürpriz sayılmayacaq korrupsiya, rüşvət faktları çıxdı. Üstəlik, belə faktlar kifayət qədər rəngarəng, elə bir o qədər də tükürpədicidir. Məsələn, həbs edilənlərdən biri, Əməliyyat-istintaq Baş İdarəsinin rəisi Məsum Rəsulov "Azərterminalkompleks" Birliyində saxlanılan müxtəlif adda siqaret məhsullarını qanunsuz olaraq ordan çıxardırmış. "Azərterminalkompleks" birliyinin direktoru Ehtiram Xəlilov isə müsadirə edilən və dövlətin mülkiyyətinə keçən malların hərracda satılması zamanı ciddi qanunsuzluq edib - qəsdən qiymətlər çox aşağı qoyulub və əvvəlcədən razılaşdırılmış şəxslərə satılıb. Yəni hərrac deyil, tamaşa qurulub: əvvəlcədən külli miqdarda pul alıb, dövlətin mülkiyyətinə keçən əmlakı "su qiymətinə" satıblar, dövlətə ziyan dəyib, əvəzində özləri külli miqdarda qazanc əldə ediblər.

Bir sözlə, Səfər Mehdiyev və komandası illər uzunu sözün həqiqi mənasında talançılıqla, "qaz vurb qazan doldurmaqla", Azərbaycan Respublikasının gömrük qanunvericiliyinin pozulması ilə müşayiət edilən, vətəndaşların hüquqlarına, dövlətin qanunla qorunan mənafelərinə zərər vuran, dövlət orqanlarının fəaliyyətinə kölgə salan qanunsuz əməllərlə məşğul olublar. Halbuki sabiq sədr vəzifədə olarkən bu cür halların varlığını inadla inkar edir, təsdiqlənsə istefa verəcəyini deyirdi. Təsdiqləndi və o, postundan uzaqlaşdırıldı.

Üstəlik, məlum oldu ki, sabiq DGK sədrinin özü də bu vəzifədə ikən kifayət qədər böyük var-dövlət sahibinə çevrilib, əməlli-başlı oliqarxlaşıb. Aydınlaşdı ki, onun nə mülklərinin sayı-hesabı var, nə də obyektlərinin; bu da azmış kimi, rəhbəri olduğu komitəni qohum-əqrəbaları ilə doldurub, onları kifayət qədər önəmli, ən əsası isə qazanclı postlara gətirib. Qaynı İlham Tarquluyevə DGK-nin tikinti işlərini tapşırıb, milyonlarla manatlıq tenderlərin icrasını ona tapşırıb, qaynının kürəkənini ER və DNBGİ baş inspektorluğuna, uşaqlıq dostu və qohumu Məsum Rəsulovu Qacaqmalçılıq və Gömrük qaydalarının Pozulması ilə mübarizə Baş idarəsinin rəisliyinə təyin edib, hətta sonuncu vur-tut iki ilə general rütbəsi alıb. Başqa bir qaynına (Zeynal Tarquluyev) DGK-nin "Azterminalkompleks" İstehsalat Birliyinin rəis müavini, qardaşı oğlu Məhəmmədə Avtonəqliyyat və Aksizli Mallar Baş Gömrük İdarəsində İnzibati idarəetmə şöbəsinin rəisi, Fərman adlı bacısı oğluna Audit və Təhlil Baş İdarəsində baş inspektor, bacısı oğlu Əliyə Avtonəqliyyat və Aksizli Mallar Baş Gömrük İdarəsində baş inspektor, başqa bir bacısı oğlu Məhərrəmə Bakı Baş Gömrük İdarəsində baş inspektor vəzifələrini həvalə edib. Bu siyahını kifayət qədər uzatmaq olar, üstəlik, S.Mehdiyev qohum-əqrəbalarını DGK-yə yerləşdirərkən absurd davranmaqdan da çəkinməyib. Məsələn, qardaşının Arif adlı kürəkəninə komitədə iş verib, özü də 51 yaşında! Halbuki "Gömrük orqanlarında Xidmət haqqında" Əsasnaməyə əsasən 50 yaş son yaş həddidir.

Bütün bu biabırçılıqlar necə baş verib? Çox sadə: DGK-də vətəndaşa, dövlətə xidmət əvəzinə "özünəxidmət" prinsipi əsas götürüldüyü, korrupsiya, rüşvət kimi qanunsuz əməllərə göz yumulduğu, "yaşıl işıq" yandırıldığı üçün! Yuxarıda da yazdığımız kimi, Səfər Mehdiyev öz vəzifə borcunu layiqincə yerinə yetirən polis əməkdaşının üstünə qışqıra, onu acılaya bilirsə, başqa necə olmalı idi ki?! Aydın görünür ki, Mehdiyevin idarəçilik "təfəkkürü" və "təcrübəsi" bundan ibarətdir, yəni onun vəzifə borcunu layiqincə yerinə yetirənlərdən zəndeyi-zəhləsi gedirmiş. Bu cür idarəçilik "təfəkkürünün" və "təcrübəsinin" DGK-də korrupsiyanı, rüşvəti, qohumbazlığı "çiçəkləndirməsi" tamamilə təbiidir.

Təbii olmayan isə ortaya çıxarılan saysız-hesabsız qanunsuzluqlara, özbaşınalıqlara baxmayaraq sabiq komitə sədrinin hələ də azadlıqda olmasıdır...

***Sənan Mirzə***



# Orxan Mürsəlovun kuratoru olduğu rayonlarda həbs edilən məmurlar - SİYAHI

***Xəbər verdiyimiz kimi, bu gün Prezident İlham Əliyevin imzaladığı sərəncamla Orxan Mürsəlov Gədəbəy rayonunun icra başçısı təyin edilib. O, bu təyinatadək o, bu təyinatadək Prezident Administrasiyasının Ərazi-təşkilat məsələləri şöbəsinin 8-ci ərazi sektorunun Baş məsləhətçisi vəzifəsində çalışıb və PA-nın qərb rayonları üzrə kuratoru kimi tanınıb.***

"Unikal"ın məlumatına görə, Dövlət Təhlükəsizliyi Xidməti (DTX) onun kuratoru olduğu rayonlarda bir neçə əməliyyat keçirib.

Belə ki, DTX-nin 2019-cu ilin dekabr ayında həyata keçirdiyi əməliyyatla Ağstafa rayonun sabiq icra başçısı Nizaməddin Quliyev və onun müavini Ramiz Tatarov saxlanılıb. Gəncə Ağır Cinayətlər Məhkəməsinin hökmü ilə, Ağstafa Rayon İcra Hakimiyyətinin sabiq başçısı Nizaməddin Quliyev 9 il, onun müavini Ramiz Tatarov isə 8 il 6 ay müddətində azadlıqdan məhrum ediliblər. Nizaməddin Quliyev 2021-ci ilin sentyabr ayında həbsdə olarkən vəfat edib. Cari ilin fevral ayında isə Gəncə Apellyasiya Məhkəməsinin qərarı ilə, Ramiz Tatarovun cəzası 3 ay azaldılıb. Onun üzərində qəti olaraq 8 il 3 ay cəza saxlanılıb.

DTX həmçinin Şəmkir rayonunda da əməliyyat keçirib. Belə ki, 2021-ci ilin aprel ayında həyata keçirilən əməliyyat tədbiri nəticəsində Şəmkir Rayon İcra Hakimiyyətinin keçmiş başçısı Alimpaşa Məmmədov və icra hakimiyyətinin bir neçə vəzifəli şəxsləri saxlanılıb. Alimpaşa Məmmədov məhkəmənin qərarı ilə həbs edilib. Bu ilin may ayında onun barəsində seçilmiş həbs müddəti daha 5 ay uzadılıb.

Sabiq icra başçısı Cinayət Məcəlləsinin 179.4 (mənimsəmə), 193-1.3.2 (cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərini leqallaşdırma), 308.2 (vəzifə səlahiyyətlərindən sui-istifadə), 311.3.2 və 311.3.3-cü (təkrar, külli miqdarda rüşvət alma) maddələri ilə ittiham olunur.

Məlumat üçün xatırladaq ki, 5 oktyabr 2021-ci il tarixinədək Gədəbəy rayonunun icra başçısı İbrahim Mustafayev olub. O, vəzifəsindən azad edildikdən sonra Prezidentinin Administrasiyasının Ərazi-təşkilat məsələləri şöbəsinin müdiri Zeynal Nağdəliyevin müavini təyin olunub.

***Murad İbrahimli***



# “Elm” və “Təhsil” Nazirliyində korrupsiya var? - Ekspert açıqladı

***“Mənə məktəblərə verilən və məktəbin idman zalında tamaşaçıların əyləşməsi üçün nəzərdə tutulan iki növ oturacağın fotusunu göndəriblər. Səthi və ayaqları adi oduncaqdan düzəldilib boyadılan 5 nəfər şagirdin oturması üçün nəzərdə tutulan belliyi olmayan taxta oturacağın qaimədə göstərilən qiyməti 270 manatdır. Nazik dəmir profildən ayaqları, səthi taxta reykadan olub 3 nəfərin oturması üçün nəzərdə tutulan belliyi olmayan oturacaq da eyni qiymətə məktəblərə verilib”.***

Bakıvaxtı.az xəbər verir ki, bu barədə təhsil eksperti Kamran Əsədov məlumat verib.

Ekspert qeyd edib ki, ölkənin bir çox məktəblərində şagirdlər üçün stol-stul və lövhə kimi adi sinif ləvazimatlarının, dərsliklərin belə çatışmadığı bir şəraitdə bu avadanlıqları məktəblərə verməyin mənası yoxdur:

“Bu kustar üsulla sexlərdə hazırlanan oturacaqların qaimədə göstərilən qiymətinə azı 5 beləsini düzəltdirmək olar. Digər bir fakt isə adamı lap dəhşətə gətirir. Ölkədəki 44 günlük müharibəsinin qələbəsini əks etdirən və məktəblərə verilən 3-4 kvadrat metrlik və çərçivəyə alınmış banerin də qaimə qiyməti 350 manatdır. Bu banerlərin oxşarı Aprel döyüşlərində və müharibə zamanı ölkə üzrə bütün məktəblərə verilib və güya bizim nazirlik də müharibəyə öz töhfəsini verib. Bunlar hansı vicdanla insanlarımızın qanı tökülən ərəfədə milyonlarla dövlət vəsaitini israf ediblər? Bu banerin maya-dəyəri faktura və qaimədə göstərilən qiymətdən ən azı 5 dəfə ucuzdur. Görürsünüzmü, hətta kimlərinsə ölümü ilə belə digərləri dirilmək yolunu necə tapır?”

K.Əsədov bildirib ki, digər bir fakt isə adamda təəssüf hissi yaradır: “Cənab Prezidentin xaricdə təhsil almağa göndərdiyi və etimad etdiyi bu kadrlar onun portretinin birini 495 manatdan sənədləşdirib məktəblərə göndəriblər. Hesab edirlər ki, belə halda heç kim onların korrupsiya əməllərini araşdırmağa cürət etməz. Ölkənin təhsil siyasətini aparmalı olan və onları görəvləndirən prezidentin portretindən belə külli miqdarda qazanc əldə etmək yolunu tutan bu məmurlara daha sözüm yoxdur...”

Ekspert onu da deyib ki, Nazirliyin məktəblərə verdiyi mal-material və təchizatlar adətən kustar üsulla və sexlərdə hazırlanır:

“Burada məqsəd həmin aktivlərin qiymətini və mayadəyərini hesablamağın maraqlı tərəflərə əlçatmaz edilməsi və onların rahatlıqla maya dəyərindən dəfələrlə baha göstərilə bilməsidir. Bunlardansa heç olmazsa faktiki qiyməti maya-dəyərindən 3 dəfə baha göstərilən 250 manatlıq parta və lövhələrdən məktəblərə verəydilər adama təsir etməzdi. İndi siz deyin, məktəblərdə bu qaiməleri görən məktəb rəhbərləri də alternativ yolu tutub onları təyin edənlər kimi saxtakarlıq, oğruluq, rüşvətxorluq və korrupsiya yolunu tuturlarsa günah kimlərdədir?”.

# 40 dərəcə isti olacaq

***Bakıda və Abşeron yarımadasında yağmursuz hava olacaq. Mülayim şimal-şərq küləyi əsəcək.***

Milli Hidrometeorologiya Xidmətindən ”Unikal”a verilən məlumata görə, havanın temperaturu gecə 22-26°isti, gündüz 32-37° isti olacaq. Bakıda gecə 23-25° isti, gündüz 34-36° isti olacaq. Atmosfer təzyiqi 758 mm civə sütunu təşkil edəcək. Nisbi rütubət gecə 60-65%, gündüz 40-45 % olacaq.

Azərbaycanın rayonlarında əsasən yağmursuz. Şərq küləyi bəzi yerlərdə arabir güclənəcək. Havanın temperaturu gecə 20-25° isti, gündüz 34-38°, bəzi yerlərdə 40° isti, dağlarda gecə 13-18° isti, gündüz 21-25° isti olacaq.

# Cavanşir Feyziyev yenidən tənqid hədəfində

## Deputat bu dəfə ölkədə dərmanların kəskin bahalaşmasına görə gündəmə gəlib

***Son vaxtlar dərmanların qiymətində kəskin artım müşahidə olunur. Tələbatın yüksək olduğu dərman pereparatları ya tapılmır, ya da olduqca baha qiymətə satılır. Dərmanların qiyməti çeşidindən asılı olaraq, orta hesabla 10-15 % civarında bahalaşıb. Məlumata görə, ”Medoklav” dərmanın qiyməti 46 faiz artaraq 72 manata yüksəlib.***

Milli Məclisin Səhiyyə Komitəsinin üzvü, millət vəkili Məlahət İbrahimqızı ”bakupost.az”a açıqlamasında deyib ki, Azərbaycanda dərmanların, tibbi avadanlıqların qiymətinin baha olmasının əsas səbəbi sözügedən sahənin idxaldan asılı olmasıdır: “Azərbaycanda əczaçılıq sənayesi çox zəifdir. Hətta deyərdim ki, ibtidai formadadır. Ona görə də bütün dərmanlar Azərbaycana xaricdən daxil olur. Yerli istehsalla bağlı cəhdlər də effektsiz olub. Dünyada ən inkişaf etmiş ölkələrdə belə təkcə dərmanların yox, hər şeyin qiyməti çox qalxıb. Azərbaycana da dərman və tibb avadanlıqları xaricdən gətirildiyinə görə qiymətlər artıb”.



Millət vəkili dərmanların bahalaşmasının digər səbəbi kimi Rusiya-Ukrayna müharibəsini göstərib: “Bildiyiniz kimi, Rusiyadan ölkəyə gətirilən dərman pereparatları çoxluq təşkil edirdi. Müharibə ilə əlaqədar Rusiyada dərman istehsalında ciddi problemlər yaranıb. Bu ölkədən Azərbaycana dərman idxalı xeyli azalıb deyə qiymət bahalaşır”.

Bununla belə M.İbrahimqızı süni qiymət artımına da diqqət çəkib: “Düşünürəm ki, dərmanların qiymətini süni şəkildə qaldıran möhtəkirlər də az deyil. Onlar indiki məqamdan sui-istifadə edərək qiyməti artırırlar. Kimlərinsə dəstəyilə açılan apteklərdə süni qiymət artımı halları da var. Müvafiq qurumlar dərmanların qiymətinə nəzarəti gücləndirməlidir. Möhtəkirlərə qarşı tədbirlər görülməlidir”.

Dərmanların qiymətindəki artım səbəbi ilə bu sahədəki inhisarçı şirkətlərin və onun rəsmi rəhbərlərinin, yaxud himayədarlarının ünvanına da tənqidlər artıb. Həmin sırada isə biznesmen-deputat Cavanşir Feyziyevin adı ön plana çıxıb. Bunun səbəbi isə onun dərman bazarında böyük paya sahib olmasıdır. Hələ illər əvvəl Feyziyev bildirmişdi ki, Azərbaycanda dərmanların qiymətinin baha olması haqda deyilənlər həqiqətdir. Sitat: ”Doğrudan da qonşu ölkələrlə müqayisədə bizdə dərmanlar yüksək qiymətə satılır. Ona görə də Milli Məclis “Dərman vasitələri haqqında” qanuna dərmanların qiymətini dövlətin tənzimləməsini nəzərdə tutan maddə əlavə etdi. Vətəndaşların maraqlarının qorunması baxımından bu dəyişiklik zəruri idi və bunu müsbət dəyərləndirirəm. Çünki hazırda dərman bazarında olan rəqabət mühiti qiymətlərin aşağı düşməsinə yox, daha da bahalaşmasına səbəb olur. Dövlət bu sahəyə müdaxilə etməli və qiymətləri tənzimləməlidir. Tənzimləmə zamanı dərman preparatlarının qiymətinin ən yüksək həddi müəyyənləşəcək. Bazar iştirakçıları bundan sonra rəqabəti dövlətin müəyyənləşdirdiyi qiymət çərçivəsində apara bilərlər. Bu da kasıb, aztəminatlı insanların mənafeyinə uyğundur”.

”Dövlət tənzimləməsindən sonra dərmanların qiyməti ucuzlaşacaqmı” sualına cavab olaraq isə demişdi: ”Hesab edirəm ki, dövlət tənzimləməsindən sonra dərmanların qiyməti ən azı 25 faiz ucuzlaşacaq. Bu da vətəndaşların il ərzində dərmana təxminən 150-200 milyon manat az pul xərcləməsi deməkdir. Hazırda Azərbaycan vətəndaşları il ərzində dərmana 600-700 milyon manat pul xərcləyirlər. Gətirdikləri dərmanları dövlətin müəyyənləşdirdiyi qiymətə sata bilməyən, bu çərçivədə rəqabət aparmağı bacarmayan şirkətlər sıradan çıxacaq. Bu, təbiidir”.

Aradan illər keçib və Feyziyevin söylədiklərinin, demək olar, heç biri reallaşmayıb. Nə dərmanlar ucuzlaşıb, nə də dərmanları dövlətin müəyyənləşdirdiyi qiymətə sata bilməyən şirkətlər sıradan çıxıb. Əksinə, obyektiv səbəblərlə yanaşı qiymət artımında subyektiv amillərin rolu, nəticədə süni qiymət artımı tendensiyası davam edib, nəticədə inhisarçı şirkətlərin gəlirləri, vətəndaşın isə çətinliyi, qayğısı yüksəlib.

Onu da deyək ki, əvvəllər mətbuatda xeyli fəal olan, mütəmadi olaraq müsahibələrlə, məqalələrlə çıxış edən Cavanşir müəllim son zamanlar səssizliyə bürünüb. Xüsusilə onun ailə üzvlərinin Londonun bank hesablarındakı 20.5 milyon dollarının (15.3 milyon funt sterlinq) müsadirə edilməsi ilə bağlı qalmaqaldan sonra deputat demək olar ki, ortalıqda görünmür. Halbuki indi onun ölkədə dərmanların yeni bahalaşma dalğası ilə bağlı nə düşündüyünü, bir neçə il öncəki optimist fikirlərində qalıb-qalmadığını, ən əsası isə bu bahalaşmaya görə ünvanına səsləndirilən tənqidlərə cavabını, reaksiyasını öyrənmək, eşitmək, oxumaq pis olmazdı...

***Toğrul Əliyev***

# Azərbaycan qanunları ilə hesablaşmayan "Bolta" və "Uber"ə məmur ittihamı...

## Deputatın sensasion açıqlamasının pərdəarxası; ölkəmizə çamur atanları maliyyələşdirən ermənilərin nəzarətindəki şirkətlərin fəaliyyəti dayandırılacaqmı?

***"Bolt Services AZ" MMC-nin qanunsuz üsullarla digər bazar subyektlərini bazardan çıxarmaqla haqsız rəqabətə yol verdiyi barədə "Delivery Azerbaijan" MMC tərəfindən İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidmətinə müraciət daxil olub.***

Yola salmaq üzrə olduğumuz həftə adıçəkilən Dövlət Xidmətindən verilən rəsmi məlumatda bildirilib ki, bununla bağlı müvafiq araşdırma aparılıb və "Bolt Services AZ" MMC haqqında antiinhisar qanunvericiliyinin pozulması əlamətləri üzrə iş qaldırılıb.

İşə baxılması zamanı "Bolt Services AZ" MMC-nin onunla eyni bazarda fəaliyyət göstərən və ya həmin bazara daxil olmaq istəyən digər bazar subyektlərinin təsərrüfat qərarlarının qəbul edilməsinə qanunsuz təsir göstərdiyi və bununla da "Haqsız rəqabət haqqında" Qanunun tələblərini pozduğu müəyyən edilib.



Dövlət Xidməti tərəfindən işə baxılmanın nəticəsi olaraq yol verilmiş haqsız rəqabət hallarının qarşısının alınması və aradan qaldırılması məqsədilə "Bolt Services AZ" MMC-yə icrası məcbur olan göstəriş verilib, habelə haqsız rəqabətə yol verdiyinə görə müəssisə barədə maliyyə sanksiyası tətbiq olunub.

Qeyd edək ki, "Bolt Services AZ" MMC haqqında iş "Delivery Azerbaijan" MMC-nin ("189 Delivery") müraciəti əsasında qaldırılmışdı. "Bolt Services AZ" MMC tərəfindən göstərilən "Bolt Food" tətbiqi üzərindən çatdırılma xidmətlərinə əsassız və qanunsuz vasitələr hesabına endirimlər etməklə rəqibin üzərində əsassız üstünlük qazanmaq məqsədilə onun təsərrüfat qərarlarının qəbul edilməsinə və icrasın qanunsuz vasitələrlə təsir göstərilməsi əlamətləri olduğu iddia olunurdu.

Ortada başqa, özü də kifayət qədər ilginc və önəmli məqam da var. 2022-ci il avqustun 7-də Bakıda bir qrup taksi sürücüsü "Bolt" və "Uber" şirkətlərinin Azərbaycandakı fəaliyyətinə qarşı etiraz aksiyası keçirib. Sürücülərin sözlərinə görə, bu şirkətlər erməni əsilli şəxslər tərəfindən maliyyələşdirilir və onların fəaliyyəti qanun pozuntusu ilə həyata keçirilir.

Xatırladaq ki, 13 iyul 2020-ci il tarixində "Yandex" və "Uber" şirkətləri onlayn səyahət bron biznesini birləşdirmək və "Yandex.Taxi"nin baş direktoru Tiqran Xudaverdyanın rəhbərlik etdiyi yeni şirkət yaratmaq qərarına gəliblər. Xudaverdyanın özünün dediyinə görə, yeni şirkət Rusiya, Ermənistan, Gürcüstan, Belarus, Qazaxıstan və Azərbaycan bazarlarında fəaliyyət göstərəcək.

Qeyd edək ki, Tiqran Xudaverdyan həm də "Yandex" media resursuna rəhbərlik edir. Məhz bu media resursu uzun illərdir ki, Azərbaycana çamur atmaqla məşğuldur. "ayna.az"ın yazdığına görə, bu resursda terrorçu və dinc azərbaycanlıların qatili Monte Melkonyan qəhrəman kimi göstərilib. 44 günlük müharibə zamanı bu resurs birmənalı olaraq erməni tərəfini dəstəkləyirdi və Tiqran Xudaverdyan özü erməni millətçilərinə maliyyə dəstəyi göstərirdi. Sayt haqlı olaraq soruşur: Xudaverdyanın Azərbaycan ərazisində sahibkarlıq fəaliyyəti ilə məşğul olmasına niyə icazə verilib? Axı təminat yoxdur ki, o, ölkəmizdə qazandığı pulu erməni separatçılarına yardıma göndərməyəcək.

Bakı Nəqliyyat Agentliyinin (BNA) mətbuat xidmətinin rəhbəri Mais Ağayev deyib ki, Agentlik sərnişinlərin daşınması ilə məşğul olan şirkətlərin fəaliyyətinə icazə verə və ya qadağan edə bilməz: "Xatırlatmaq istəyirəm ki, dörd il əvvəl biz təsisçiləri erməni millətinin nümayəndələri olan şirkətlərlə əməkdaşlıqdan imtina etmək təklifi ilə sürücülərə müraciət etmişdik. Lakin sürücülər bizim xəbərdarlıqlarımıza məhəl qoymadılar".

İqtisadiyyat Nazirliyi (İN) yanında Əmlak Məsələləri Dövlət Xidmətinin (ƏMDX) mətbuat xidmətinin rəhbəri Elmar Yaqubov isə bildirib ki, bu məsələ ilə bağlı İN-ə müraciət edilməlidir: "İstənilən şirkət vergi ödəyicisi kimi qeydiyyatdan keçib. Vergilər Nazirliyinin funksiyaları isə İqtisadiyyat Nazirliyinə verilib".

Məsələ İN-in mətbuat xidməti ilə əlaqə saxladıqda isə oradan bildiriblər ki, məsələni mütləq araşdırıb bizə məlumat verəcəklər.

Milli Məclisin üzvü Vahid Əhmədov isə qeyd edib ki, əgər erməni millətçilərinin fəaliyyətini maliyyələşdirən Tiqran Xudaverdyanın rəhbərlik etdiyi "Uber" şirkətinin fəaliyyəti dayandırılmasa, bu, o deməkdir ki, şirkətin fəaliyyəti hansısa məmurların maraqlarına uyğundur: ""Uber"in bağlanmasından Azərbaycan heç nə itirməyəcək. Ölkəmizdə sərnişinlərin daşınması üçün kifayət qədər şəxsi müəssisələr var".

Xatırladaq ki, ötən il yerli mətbuata açıqlamasında nəqliyyat eksperti Elməddin Muradlı da qeyd etmişdi ki, "Uber", "Yandex", "Maksim" şirkətlərinin hissədarları ermənilərdir və onlar Azərbaycanda çox rahatlıqla fəaliyyət göstərir, milyonlar qazanırlar: "Yerli şirkətlər nə iş görür? Onlar da bu erməni şirkətlərinin məngənəsində boğulurlar. Bu şirkətlər sürücüləri müflis etsə, özləri isə ziyana işləsələr belə, qiymətləri aşağı salırlar və sürücülər bu şirkətlərlə işləmək məcburiyyətində qalırlar. Azərbaycanın pulu niyə erməni nümayəndəsinin cibinə axmalıdır? Elə bir sistem qurulmalıdır ki, yerli şirkətlər inkişaf edə və xarici şirkətlər səviyyəsində işlərini qura bilsinlər".

Belə görünür ki, gec də olsa, mövzu artıq xeyli aktuallıq qazanıb və Azərbaycandan qazandıqları pullarla ölkəmizə qarşı çamur atanları maliyyələşdirən şirkətlər barədə yaxın vaxtlarda qanunvericiliyə uyğun olaraq konkret addımların şahidi ola biləriк...

***Toğrul Əliyev***

# Şagirdlərin yerdəyişməsi davam edir - SİYAHI

***2022-2023-cü tədris ili üzrə şagirdlərin yerdəyişməsi prosesi davam edir.***

Bu barədə "Unikal"a Elm və Təhsil Nazirliyindən məlumat verilib. Bildirilib ki, proses "sy.edu.az" elektron sistemi üzərindən aparılır və sentyabrın 5-i saat 18:00-dək davam edəcək.

Valideynlər 9 sentyabr saat 15:00-dək övladlarının sənədlərini yerdəyişmə etdiyi ümumtəhsil müəssisəsinə təqdim etməlidirlər.

Aşağıda adları qeyd edilmiş ümumtəhsil müəssisələrinin II-XI siniflərində yaranmış vakant yerlərə şagird yerdəyişməsi imtahanla aparılır. İmtahanlara qeydiyyat 10 avqust saat 11:00-dan 19 avqust saat 18:00-dək aktiv olacaq. İmtahanlar ibtidai siniflər üzrə avqustun 23-də, V-XI siniflər üzrə isə avqustun 24-də keçiriləcək.

İmtahanla yerdəyişmə aparılan ümumtəhsil müəssisələrinin siyahısı:

1. Heydər Əliyev adına lisey;
2. T.İsmayılov adına 6 nömrəli məktəb-lisey;
3. 132-134 nömrəli Təhsil Kompleksi;
4. T.Həsənov adına 23 nömrəli tam orta məktəb;
5. İlyas Əfəndiyev adına Elitar gimnaziya;
6. İ.Hacıyev adına "Tərəqqi" texniki-humanitar liseyi;
7. "Zəngi" liseyi;
8. Bakı Avropa Liseyi;
9. Bakı Slavyan Universitetinin nəzdində məktəb-lisey kompleksi;
10. Azərbaycan Milli Konservatoriyasının nəzdində İncəsənət Gimnaziyası;
11. Bülbül adına Orta İxtisas Musiqi Məktəbi.

Qeyd edək ki, "sy.edu.az" elektron sistemi II-IX və XI siniflər üçün avqustun 4-dən aktivdir, X siniflər üçün isə avqustun 15-i saat 11:00-dan etibarən aktivləşdiriləcək.

# Laçından yan keçən yolun tikintisi yekunlaşdı



***Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonları ərazisində dövlətimizin başçısının tapşırığı ilə icra olunan mühüm yol infrastrukturu layihələrindən biri də Laçın şəhərinə daxil olmadan yeni avtomobil yolununun tikintisidir.***

"Unikal" xəbər verir ki, Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyi tərəfindən aparılan tikinti işləri artıq yekunlaşıb.

Avtomobil yolunun tikintisi zamanı 7.3 milyon kub metr həcmində qazma-tökmə işləri, 1.3 milyon kub metr həcmində qaya partlatma işləri yerinə yetirilib, yeni yol yatağı və yol əsası inşa edilib.

Çətin relyefə malik olan ərazidən keçən yol boyunca layihəyə uyğun müxtəlif süni qurğuların tikintisi də icra olunub. Belə ki, zəruri yerlərdə beton küvetlər tikilib, 17 yerdə müxtəlif diametrli dairəvi suötürücü boru, 36 yerdə müxtəlif diametrli plastik boru quraşdırılıb, uzunluğu 149.5 metr, eni 13.5 metr təşkil edən 4 aşırımlı avtomobil körpüsü inşa edilib.

Daha sonra "İnşaat Norma və Qaydaları"na uyğun olaraq yol geyimi inşa edilib, asfalt-beton örtüyü döşənib, yol çiyinləri bərkidilib.

Layihənin sonuncu mərhələsində yola üfüqi nişanlanma xətləri çəkilib, zəruri yerlərdə yol nişanları və mühafizə səddi (əyri-xətli dəmir tirlər, monolit dəmir-beton) quraşdırılıb.

Bütün inşaat işləri tərtib olunmuş qrafikə uyğun və texnoloji ardıcıllığa riayət olunmaqla həyata keçirilib.

Qeyd edək ki, Laçın şəhərinə daxil olmadan yeni avtomobil yolununun tikintisinə 2021-ci ilin iyul ayında başlanılıb. Yolun ümumi uzunluğu 32 km təşkil edir (bundan 10 km Ermənistan ərazisində yerləşir) və III texniki dərəcəyə uyğun inşa edilib. Yoxuşlarda 3, digər hissələrdə 2 hərəkət zolaqlı olan yolun layihə üzrə hərəkət hissəsinin eni 7-10.5 metr, torpaq yatağının eni 12-15 metr, çiyin hissələrin eni isə 2x2.5 (5 m) metr təşkil edir.

# 2022-ci ilin birinci yarımilində Abşeron rayonunun "Sosial-iqtisadi inkişafı" haqqında

*İqtisadi inkişafının ən sürətli mərhələsini yaşayan ölkəmizin ictimai-siyasi və sosial-iqtisadi həyatında köklü dəyişikliklər baş vermişdir. Regionların inkişafı sahəsində qəbul edilmiş və uğurla həyata keçirilmiş dövlət proqramlarında, habelə regionların sosial-iqtisadi inkişafına dair əlavə tədbirlərlə bağlı sərəncamlarda nəzərdə tutulmuş vəzifələrin icrası ölkədə qeyri-neft sektorunun davamlı inkişafına, investisiya qoyuluşunun artmasına, yeni müəssisələrin və yeni iş yerlərinin açılmasına, nəticədə əhalinin rifahının artırılmasına və yoxsulluq səviyyəsinin azaldılmasına təkan vermişdir.*

Uğurla icra olunan bu proqramlar Abşeron rayonunda da iqtisadi potensialın artması ilə müşahidə olunur. Belə ki, rayonda fəaliyyət göstərən sənaye müəssisələri tərəfindən altı ay ərzində 347.8 milyon manatlıq sənaye məhsulu istehsal edilmiş və xidmətlər göstərilmişdir ki, bu da əvvəlki il ilə müqayisədə 100.6 milyon manat çoxdur. Sənayenin inkişafında qeyri-dövlət sektorunun fəaliyyəti mühüm əhəmiyyət kəsb edir. Qeyri-dövlət subyektləri tərəfindən hesabat dövrü ərzində 300.0 milyon manatlıq məhsul istehsal edilmiş və xidmətlər göstərilmişdir ki, bu da ümumi məhsulun 86.2 faizi qədərdir.

Rayonun sosial-iqtisadi infrastruktur sahələrindən biri olan nəqliyyat sektoru cəmiyyətin inkişafında mühüm rol oynayır. Rayonda nəqliyyat müəssisələri və fiziki şəxslər tərəfindən 549.0 min ton yük daşınmışdır. Dövr ərzində fiziki şəxslər tərəfindən yük və sərnişin daşınmasından əldə olunan gəlir isə 17.7 milyon manat olmuşdur.

Hesabatların təhlilindən məlum olur ki, Abşeron rayonunun iqtisadi inkişafında rabitə və informasiya sahəsinin də əhəmiyyətli yeri var. Belə ki, hesabat dövründə müəssisə və təşkilatlara, həmçinin əhaliyə faktiki qiymətlərlə 10.3 milyon manatlıq və ya 2021-ci il ilə müqayisədə 46.2 faiz çox rabitə xidməti göstərilmişdir.

Hesabat dövründə rayonda 48.7 milyon manatlıq investisiya qoyuluşu olmuşdur. Bu investisiyanın 42.7 milyon manatı tikinti-quraşdırma işlərinin yerinə yetirilməsinə sərf edilmişdir.

İl ərzində əhaliyə pərakəndə ticarət və iaşə şəbəkələrindən 306.7 milyon manata bərabər istehlak malları satılmış və iaşə xidmətləri göstərilmişdir ki, bu da keçən ilin müvafiq dövrünə nisbətən 25.0 faiz çoxdur. Əhaliyə göstərilən ödənişli xidmətin dəyəri isə 50.8 milyon manat olmuşdur ki, bunun da 19.7 milyon manatı dövlət, 31.1 milyon manatı isə qeyri-dövlət mülkiyyətinə məxsus təşkilatlar tərəfindən əldə edilmişdir.

2022-si ilin məhsulu üçün ümumilikdə 1207.5 hektar sahədə payızlıq və yazlıq əkin aparılmışdır. Bu sahənin 200.4 hektarından payızlıq dənlilər biçilmişdir.

Rayonun kənd təsərrüfatı müəssisələrində, əhali və kəndli fermer təsərrüfatlarında 2022-ci il iyul ayının 1-i vəziyyətinə 21511 baş iribuynuzlu mal-qara, o cümlədən 13955 baş inək və camış, 103219 baş isə qoyun və keçi mövcud olmuşdur. Cari ildə təqdim olunan statistik məlumatlara və müvafiq hesablamalara görə diri çəkidə 3150 ton ət, 18791 ton süd istehsal edilmişdir.

2022-ci il iyun ayının 1-i vəziyyətinə Abşeron rayonunda iqtisadiyyatın bütün sahələrini əhatə etməklə faktiki işləyənlərin sayı 37651 nəfər olmuş, bundan 13502 nəfəri dövlət, 24149 nəfəri isə qeyri-dövlət sektorunu əhatə etmişdir. Hesablanmış əməkhaqqı fondu 116833.1 min manat olmuşdur. Rayon üzrə bir işçiyə düşən orta aylıq əməkhaqqı 620.6 manat təşkil etmişdir. Keçən ilin müvafiq dövrü ilə müqayisədə faktiki işləyənlərin orta sayı 13.1 faiz, orta aylıq əməkhaqqı isə 9.0 faiz artmışdır.

Rayonda sosial sahənin inkişafı da yüksək səviyyədə təmin olunur, quruculuq-abadlıq işləri davam etdirilir.

Abşeron Rayon Statistika İdarəsinin rəisi Təvəkkül Mirzəyev

# 62 nəfər əvvəlki işinə bərpa olundu



***Bu il 62 şəxs əvvəlki işinə bərpa olunub. Bu barədə "Unikal"a Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyindən məlumat verilib.***

Bildirilib ki, nazirlik yanında Dövlət Əmək Müfəttişliyi Xidməti 2022-ci ilin 7 ayı ərzində vətəndaş müraciətlərini araşdırarkən 62 işçinin əmək müqavilələrinə qanunvericiliyin tələbləri pozulmaqla xitam verildiyini müəyyən edib.

Xidmətin qanunvericiliyə əsasən gördüyü tədbirlər nəticəsində həmin işçilər yenidən əvvəlki işlərinə bərpa olunublar.

# Laçındakı ermənilər: "Müsəlmanlar erməni evlərində yaşamazlar, onları yandırmaq mənasızdır"

***Laçın şəhəri və Zabux kəndində qanunsuz yaşayan ermənilərin əmlakının ərazidən daşınması bir neçə gündür dövlət səviyyəsində təşkil olunub. Bunun üçün ayrılan avtomobillər bütün günü yük daşıyır. Bəzi ailələr əmlaklarını Qarabağın digər bölgəsinə, əksəriyyəti isə Ermənistana köçürür.***

Modern.az-ın məlumatına görə, bunu Ermənistanın "Hraparak" qəzeti Laçındakı ermənilərin köç prosesi barədəki məqaləsində yazıb.

Məqalədə qeyd edilir ki, hazırda Laçındakı üç icmada (Laçın şəhəri, Zabux və Sus kəndləri) ümumilikdə 100-ə yaxın ailə, 350 nəfər yaşayır.

"Hraparak" qəzeti bildirib ki, adı çəkilən icmaların əhalisinin yalnız 10-15 faizi Qarabağda məskunlaşmaq arzusundadır, əksəriyyət Ermənistana köçmək istədiyini deyib.

Qəzet yazır ki, Laçın şəhəri, Zabux və Sus kəndlərindəki ermənilərin təxliyəsi Azərbaycan tərəfinin tələbi deyil, rəsmi Bakı həmin 350-yə yaxın erməninin sözügedən ərazilərdə yaşamağa davam etməsini qəbul etməyə hazırdır: "Amma bir şərtlə ki, onlar Azərbaycan vətəndaşı olmağı qəbul edirlər və Azərbaycan qanunlarına uyğun yaşayırlar".

Nəşr bildirib ki, Laçındakı ermənilər Azərbaycan vətəndaşlığını qəbul etməyə razılaşarsa, Xankəndidəki separatçı rejim və Ermənistan hakimiyyəti onların həyatı və təhlükəsizliyi üçün heç bir məsuliyyət daşımayacaq.

Ancaq Azərbaycan vətəndaşlığını qəbul etməyə razılaşmayan ermənilər köçməyə üstünlük veriblər və artıq əşyalarını yığırlar.

"Hraparak"ın məlumatına görə, ermənilər əmlakın mümkün qədər çox hissəsini köçürəcəklər.

"Hətta bəziləri yeni yaşayış yerlərində həyata sıfırdan başlamamaq üçün qəbirlərdən məzar daşlarını da götürür, imkan daxilində evlərini sökürlər".



Laçından köçən ermənilər "Hraparak"a bildiriblər ki, tərk edilən evləri yandırmaq mənasızdır:

"İlk növbədə ona görə ki, azərbaycanlılar, müsəlman dininə etiqad edənlər, bir qayda olaraq, ermənilərin evində yaşamırlar. Və başqa arqument də var: Ağavnodakı (Zabuxdakı-red.) evləri yandıracağıq, onlar da (azərbaycanlılar-red.) bizim kommunikasiyalarımızı zədələyəcəklər, axı "Artsax"ı (Qarabağın ermənilərin nəzartində olan bölgəsi-red.) qidalandıran su, işıq, rabitə onların ərazisində qalır".

Məqalədə o da bildirilib ki, "Laçın dəhlizini"nə alternativ çəkilən yeni yolun Ermənistana düşən hissəsindəki 3 kilometrlik məsafənin abadlaşdırılması işlərinə də başlanılıb. Hazırda torpaq yol olan həmin hissənin sentyabra kimi tələm-tələsik abadlaşdırılmasında məqsəd Xankəndinin Ermənistanla əlaqəsinin kəsilməməsinə nail olmaqdır. Daha sonra Ermənistan tərəfi alternativ yolun öz ərazisinə düşən 11 kilometrə qədər olan hissəsinin tikintisini 250 günə qədər həyata keçirməyi planlaşdırır.

Xatırladaq ki, Azərbaycan tərəfi "Laçın dəhlizi"nə alternativ çəkilən yeni yolda işləri yekunlaşdırmaq üzrədir. Tikinti işləri bitəndən sonra Rusiya sülhməramlı qüvvələrinin "Laçın dəhlizi"ndən yeni yola keçirilməsi nəzərdə tutulur.

"Laçın dəhlizi"nə alternativ olan 32 kilometrlik yeni yolun inşası Rusiya, Ermənistan və Azərbaycan arasında imzalanmış 10 noyabr 2020-ci il tarixli üçtərəfli bəyanatda öz əksini tapıb. Sənədə görə, Laçından yan keçən və Qarabağın dağlıq hissəsini Ermənistanla birləşdirən yeni yol 3 il ərzində hazır olmalıdır.

Xankəndini Ermənistanla birləşdirəcək Laçın şəhərindən yan keçən yeni yol istifadəyə veriləndən sonra Laçın şəhəri və rayonun hazırda rusların nəzarətində qalmış kəndləri Azərbaycanın nəzarətinə qaytarılacaq.

Söhbət "Laçın dəhlizi" adlandırılan 5 kilometr enindəki zolaqda yerləşən Laçın şəhəri və rayonun 6 kəndi - Qarıkaha, Ağanus, Fətəlipəyə, Kəravuz, Sus, Zabuxdan gedir. Hazırda bu yaşayış məntəqələrinin 3-də - Laçın şəhəri, Zabux və Sus kəndlərində ermənilər qanunsuz məskunlaşıblar.

*Ə.Qafarlı*

## 6.3.4. ictimai və dövlət maraqlarının müdafiəsi;

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

# İctimai və dövlət maraqları necə təmin olunmalı?

## Çingiz Qənizadə: "Hansı dövlətdə ictimai və dövlət maraqları üst-üsə düşürsə o dövlətlərdə sabitlik, əmin-əmanlıq olur"



***Hər bir cəmiyyətdə ictimai maraqlarla yanaşı dövlətin də maraqları qorunur. İctimai maraqların müdafiəsi bəzən dövlət maraqları ilə üst-üstə düşməyə, müəyyən fikir ayrılıqlarına da səbəb ola bilər. Bu zaman ortaya çıxan əsas sual hər kəsi maraqlandırır-İctimai maraqlar daha üstün tutlmalıdır, yoxsa dövlətin maraqları?***

Bu məsələ ilə bağlı sosial platformada da müəyyən müzakirələr yaranır. İctimaiyyətin maraqları, hüququnun qorunması baxımından vacib olan məsələlər səsləndirilərkən bunun dövlətin maraqlarına zərbə vurduğu bəzən irad tutulur. Bəs görəsən bu balans necə qorunmalıdır?

Hüquq müdafiəçisi Çingiz Qənizadə deyir ki, ictimai maraqların qorunması üçün qanunlar ictimaiyyətin maraqlarına cavab verməldiir. Həmsöhbətimiz bildirir ki, qanunlar elə qəbul edilməlidir ki, ictimai maraqlar təmin olunsun: "İctimai maraqların təmin olunması qəbul edilmiş qanunlardan asılıdır. Ona görə də qanunlar qəbul edilərkən ictimaiyyətin maraqları prioritet olmalıdır. Zaman-zaman qanunlar təkmilləşdirilməli, ictimaiyyətin maraqlarına uyğunlaşdırılmalıdır".

Hüquq müdafiəçisi bildirir ki, hansı cəmiyyətlərdə dövlət maraqları ilə ictimai maraqlar üst -üstə düşmürsə narazılıqlar baş verir. Buna görə də qanunlarda müəyyən boşluqlar vaxtında aradan qaldırılmalıdır: "Hansı dövlətdə ictimai və dövlət maraqları üst-üsə düşürsə o dövlətlərdə sabitlik, əmin-əmanlıq olur. Ona görə də, müəyyən qruplar yaradılmalı, həmin qruplar vaxtında qanundakı boşluqları, çatışmazlıqları aradan qaldırmaqla bağlı təkliflər verməlidir ki, ictimai maraqlarla dövlət maraqları arasında uçurum yaranmasın".

Qeyd edək ki, zaman-zaman dövlət maraqlarının qorunması və bu maraqların ictimaiyyət arasında təbliği işi aparılır. İctimai və dövlət maraqlarının qorunmasında, təhlükəsizliyin müdafiəsində vətəndaşlarımızın maariflənməsi vacib amil hesab olunur. Hər bir vətəndaşa siyasi mövqeyindən asılı olmayaraq, Azərbaycan dövlətinin maraqlarını qoruması tövsiyə edilir.

İctimai və dövlət maraqlarının müdafiəsi sistemində ictimai maraqların müdafiəsi xüsusilə diqqət mərkəzində olmalıdır. Yəni ictimai maraqlar yetərincə müdafiə edilirsə və dövlət maraqları da onunla üst-üstə düşürsə, deməli, ictimai maraqların müdafiəsi elə həm də dövlət maraqlarının müdafiəsi rolunda çıxış edəcək. Yox, əgər dövlət maraqları ictimai maraqlarla uzlaşmırsa, belə dövlət maraqlarının qorunması məqsədəuyğun deyil. Bu baxımdan ictimai rəy əsasında idarə edilən cəmiyyətlərdə bəzən heç ictimai maraqların qorunması üçün belə ciddi cəhdlərə ehtiyac qalmır. Cəmiyyətdə ictimai və dövlət maraqları elə bir anlayışdır ki, onlar mütləq şəkildə uzlaşmalıdır və dövlətin normal sosial siyasət yürütməsini təmin etsin. Əks təqdirdə, cəmiyyətin və dövlətin birgə yaşaması mümkün olmaz. Demokratik cəmiyyətlərdə isə belə bir problem yaşanmadığından, dövlət və ictimai maraqlar bir-birini tamamladığından onun müdafiəsi və inkişafı təbii prosesə çevrilir. Ölkəmizdə ictimai və dövlət maraqlarının müdafiəsi, məhz həyata keçirilən uğurlu siyasət sayəsində təmin edilir. Azərbaycan dövləti ictimai marağın müdafiəçisi kimi çıxış edir və məhz bu səbəbdən də cəmiyyətin bütün qruplarının marağında olan məsələlərin həllinə nail olur. İstər cəmiyyətin rifah halının yüksəldilməsi, yaşayış və fəaliyyət şəraitinin yaxşılaşdırılması, istərsə də keçirilən islahatlar olsun, ümumilikdə dövlətimizin atdığı bütün addımlar, yürütdüyü siyasət ölkəmizdə ictimai marağın qorunduğunu təsdiqləyir. Eyni zamanda, bütün bunlar ondan xəbər verir ki, ictimai və dövlət maraqları üst-üstə düşür. İctimai və dövlət maraqlarının müdafiəsində, eləcə də qorunmasında "cəmiyyətin güzgüsü" hesab edilən mətbuat nümayəndələri də yaxından iştirak edir. Əlbəttə ki, mətbuat milli maraqların müdafiəsində dövlətin və vətəndaşın müdafiəçisi rolunda çıxış etməlidir. Demokratik quruluşa malik olan ölkələrdə bütün vətəndaş cəmiyyəti institutları ictimai və dövlət maraqlarının müdafiəçiləri sayılır. Bu institutun bir bölməsi olan media da daim ictimai maraqların müdafiə edilməsini diqqətdə saxlamalıdır.Amma sözsüz ki, bu zaman dövlət maraqları da unudulmamalıdır.

Hətta Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev də çıxışlarında bu məsələni dəfələrlə vurğulayıb. Ölkə rəhbəri xüsusilə kütləvi informasiya vasitələrinin nümayəndələrinə xitabən daim mətbuatın milli maraqlardan çıxış etməli olduğunu aktual məsələ kimi vurğulayıb. İlham Əliyev dəfələrlə "Bizim siyasətimizin təməlində dövlət maraqları, xalqla iqtidar arasında birlik dayanır" fikirini səsləndirib.

**Gülayə Mecid**

**Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin ayırdığı maliyyə əsasında hazırlanır.**



# QHT-lər Britaniyadakı səfirliyimizə hücumla bağlı bəyanat verdi

***Azərbaycanın bir qrup QHT nümayəndəsi ölkəmizin Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığındakı səfirliyinə qarşı törədilmiş vandalizm aktına dair bəyanatla çıxış edib.***

"Unikal"ın məlumatına görə, bəyanatda deyilir:

"Biz "Azərbaycanın milli maraqlarının xarici ölkələrdə, beynəlxalq platformalarda müdafiəsi və təşviqi" istiqmətində fəaliyyət göstərən bir qrup QHT nümayəndəsi olaraq 4 avqust 2022-ci ildə günorta saatlarında Londondakı Azərbaycan səfirliyinə radikal dindarların hücumunu və onların törətdiyi vandalizm aktını pisləyir, bayrağımıza, səfirliyin əməkdaşlarına və səfirlik binasına qarşı olan hərəkətləri həm Böyük Britaniyanın imicinə, həmçinin beynəlxalq və onun ayrılmaz hissəsi olan diplomatik hüquqa zidd olduğunu bəyan edirik.

Hadisədən artıq 1 həftədən çox vaxt keçməsinə baxmayaraq, Böyük Britaniyanın Azərbaycandakı səfirliyi ancaq 5 avqust tarixində bir açıqlama verib. Bu açıqlamada isə Böyük Britaniyanın Azərbaycandakı səfirliyinin Azərbaycanın London səfirliyinə daxil olan "etirazçıların hərəkətlərini pislədiyi"ni və bu məsələ ilə bağlı hərtərəfli araşdırma apalıdığını bildirib. Hadisə baş verəndən bir gün sonra verilən bu açıqlamada hadisəni törədənlərin kim olduğunu Böyük Britaniya hökuməti hələ də "müəyyənləşdirə bilməyib" və onları sadəcə olaraq "etirazçılar" adlandırıb. Baş verən hadisənin "vandalizm aktı" olduğu, Azərbaycan bayrağına qarşı törədildiyi və polislərin gözü qarşısında baş verdiyi halda niyə "etirazçılar" kimi təqdim olunduğu çoxlu suallar doğurur. Hadisə ilə bağlı xəbərdarlıq Azərbaycan Xarici İşlər Nazirliyi tərəfindən diplomatik kanallar vasitəsilə Böyük Britaniyanın aidiyyəti qurumlarının diqqətinə çatdırılsa da hələlik Böyük Britaniya hökuməti tərəfindən ciddi bir açıqlama verilməyib. Məlumat üçün bildirir ki, 18 aprel 1961-ci ildə qəbul edilmiş "Diplomatik əlaqələr haqqında Konvensiya"nın 22-ci maddəsinə əsasən, "Nümayəndəlik binaları toxunulmazdır. Nümayəndəliyi hər cür hücumlardan və zərər vurulmasından qorumaq və nümayəndəliyin sakitliyinin pozulmasının və ya şərəfinin təhqir olunmasının qarşısını almaq üçün lazımi tədbirlər görmək yerləşmə dövlətinin xüsusi vəzifəsidir".

Azərbaycan Vətəndaş Cəmiyyəti nümayəndələri olaraq belə hesab edirik ki, Azərbaycan səfirliyinə hücumun məsuliyyətini Böyük Britaniya bir dövlət kimi qəbul etməli, Azərbaycan xalqının narahatçılığını başa düşməli, baş vermiş hadisəni ciddi araşdırmalı, cavabdehlərin tapılıb cəzalandırılmasını təşkil etməli, nəticələr barədə Azərbaycan Hökumətinə və xalqına məlumat verməlidir".

# Bu marşrut xətləri üzrə avtobusların hərəkəti gecikir



***Vahid Dispetçer Xidmətinin bu gün səhər pik saatlarına olan məlumatına əsasən paytaxtın müxtəlif ərazilərində müşahidə olunan nəqliyyat sıxlıqları səbəbindən 14 müntəzəm marşrut xətti üzrə 40 avtobusun hərəkət intervalında gecikmələr var.***

"Unikal" xəbər verir ki, bu barədə Bakı Nəqliyyat Agentliyi məlumat yayıb. "Bakı - Sumqayıt şossesində -Bakı Beynəlxalq Avtovağzal Kompleksinin qarşısından 20 Yanvar dairəsi istiqamətində Moskva prospektinə qədər sıxlıq müşahidə olunur. Bu səbəbdən də həmin ərazidən keçən 2, 7A, 13, 29, 14, 18, 65, 67, 83, 96, 114A, 114B, 119, 135 nömrəli müntəzəm marşrut xətlərindəki avtobuslararası intervallarda 11-14 dəqiqə gecikmə müşahidə olunur.

"Paytaxtın digər küçə və prospektlərində avtobusların hərəkət intervallarına təsir göstərə biləcək sıxlıq müşahidə olunmur", - məlumatda qeyd edilib.

# Bu ölkələrə səfər etmək təhlükəlidir - STATİSTİKA

***Koronavirus pandemiyası iki ildən çoxdur ki, dünyanı ağuşuna alıb. Üstəlik COVID-19-un bir-birindən təhlükəli ştamının yaranması dünya ölkələrini yeni problemlə qarşı qarşıya qoyub. Əgər 2019-cu ilin sonu, 2020-ci ilin əvvəllərində Çin, Hindistan və digər ölkələr pandemiya şəraitində səfərlər üçün təhlükəli məkanlar adlanırdısa, son aylar bu siyahı tamamilə yenilənib və dəyişib. İndi tamamilə başqa ölkələr pandemiya dövründə təhlükəli olan ölkələr adlanırlar. Üstəlik, meymunçiçəyi xəstəliyini də bura əlavə etsək, bəzi ölkələrdə pandemik və epidemik vəziyyətin nə qədər ağır olduğu məlum olur.***

"Unikal" dünyanın ən təhlükəli ölkələrinin siyahısını təqdim edir.

Araşdırmalar, statistik göstəricilər sübut edir ki, hazırda pandemiya baxımından səfər üçün ən təhlükəli ölkə Yaponiyadır. "Gündoğar ölkə"də təkcə son sutkada 196 732 nəfər insan koronavirusa yoluxub, 250 nəfər ölüb. Bununla da Yaponiyada koronavirusa yoluxanların sayı 14 618 271 nəfərə, ölənlərin sayı isə 34 075 nəfərə çatıb.

Üstəlik, ötən ay Yaponiyada meymunçiçəyi xəstəliyinə yoluxma da qeydə alınıb.

Artıq uzun müddətdir koronavirusa ümumi yoluxma və ölüm sayına görə dünyada birinci olan ABŞ-da son gün ərzində daha 175 nəfər koronavirusun qurbanı olub, 26 703 insanda COVID-19 aşkarlanıb.

ABŞ hökumətinin meymunçiçəyi ilə əlaqədar fövqəladə vəziyyət elan etdiyini nəzərə alsaq, vəziyyətin nə qədər acınacaqlı olduğunu təsəvvür etmək çətin deyil. ABŞ-da 6,6 min nəfərdən çox insan bu virusa yoluxub.

Qərbi Avropa ölkəsi İtaliyada da vəziyyət olduqca acınacaqlıdır. Ölkənin səhiyyə orqanlarının ümumiləşmiş məlumatına görə, son sutkada 145 koronavirusdan ölüb, daha 31,699 təhlükəli virus aşkarlanıb.

Avstraliyada son sutkada pandemiya qurbanlarının sayı 133 nəfər təşkil edib, 27 329 nəfərdə koronavirus aşkarlanıb.

Siyahıdakı ilk yerlərdə Meksikanın da adı var. Şimali Amerika ölkəsində 95 nəfər koronavisusdan ölüb, daha 15 738 nəfərdə COVID-19 aşkar edilib.

Qonşu İranda da vəziyyət ürəkaçan deyil. İslam Respublikasının səlahiyyətli orqanlar bildirir ki, koronavirus daha 90 nəfərin həyatına son qoyub, COVID-19 xəstələrinin siyahısına əlavə olaraq 5 635 nəfər qoşulub.

Fransa son bir gündə 88 vətəndaşını COVID-19-dan itirdiyini, daha 27 081 insanda təhlükəli virusun aşkarlandığını açıqlayıb.

Macarıstanda da son sutkada onlarla insan koronavirusdan vəfat edib. Məlumata görə, 80 nəfər koronavirusun qurbanı olub, 18 078 insanda təhlükəli virus aşkarlanıb.

Siyahıya həmçinin Rusiya (son sutkada 56 ölüm, 23 771 yeni yoluxma), Cənubi Koreya (bir gündə 50 ölüm, 151 734 yeni yoluxma), Tailand (sutkalıq 32 ölüm, 2 335 yoluxma), Polşa (31 ölüm, 4,482 yeni yoluxma), Rumıniya (25 ölüm), Filippin (25 ölüm) və digərləri daxildir.

# Riyad Əliyevin əmlaklarını kim ələ keçirib - Məhkəmə işi

***Yasamal Rayon Məhkəməsində hakim Günel Əkbərlinin sədrliyi ilə akademik Aqil Əlirza oğlu Əliyevin nəvəsi Riyad Əliyevin iddiası üzrə növbəti proses keçirilib.***



"Unikal" Musavat.com-a istinadən xəbər verir ki, o, babası Aqil Əliyevdən atası İlqar Əliyevə miras qalmış əmlakların başqa şəxslər tərəfindən ələ keçirildiyini iddia edir. Tərəflər arasındakı mülki çəkişmə bir neçə məhkəmə instansiyasında davam edir. Son olaraq Yasamal Rayon Məhkəməsinə müraciət edən Riyad Əliyev bildirib ki, atası İlqar Əliyevin ətrafında olan bəzi şəxslər həmin əmlaklar vasitəsilə varlanıblar və həmin əmlakları tam olaraq ələ keçirmək istəyirlər.

Riyad Əliyev ona və atasının keçmiş şəriki olmuş İlham Məmmədova İlqar Əliyev tərəfindən verilmiş etibarnamələrin ləğv edilməsinin etibarsız hesab olunmasını məhkəmədən xahiş edib. Həmçinin İlqar Əliyevin digər şəxslərə verdiyi etibarnamələr və onlar üzrə aparılmış bütün hərəkətlərin etibarsız hesab olunması barədə qətnamə qəbul edilməsini istəyib.

Ötən prosesdə iddiaçı Riyad Əliyevin vəkili və nümayəndəsi Gülşən Salmanova prosesin qapalı keçirilməsini, jurnalistlərin iştirakı olmadan davam etdirilməsini istəmişdi. Hakim Günel Əkbərli vəkilin vəsatətini yazılı şəkildə təqdim etməsi üçün prosesdə bir neçə günlük fasilə elan etmişdi.

Avqustun 10-na təyin olunmuş prosesdə vəkil 1 vərəqdən ibarət olan vəsatətini məhkəməyə təqdim etdi. Gülşən Salmanova vəsatətində ümumi sözlərlə işdə kommersiya sirlərinin, məhkəmə iclasında səsləndiriləcək ailə və şəxsi həyatla bağlı məsələlərin nəzərə alınaraq prosesin qapalı keçirilməsini xahiş edib.

Cavabdeh tərəfin vəkilləri bildiriblər ki, vəsatət əsaslandırılmayıb, işdə kommersiya sirlərindən söhbət getmir. Belə sirrlərin olacağı təqdirdə iddiaya Kommersiya Məhkəməsində baxılmalıdır. Ailə sirlərinə gəldikdə isə yenə də həmin sirrlər olacağı halda, məhkəmə prosesinin həmin hissəsində prosesin qapalı keçirilə bilməsini məhkəmənin diqqətinə çatdırıblar. Vəkillər əlavə edib ki, iddia etibarnamələrin ləğv edilməsinə etiraz olduğu üçün burada ailə sirrindən və şəxsi məlumatlardan söhbət gedə bilməz. Hakimin diqqətinə çatdırıblar ki, məhkəmə iclasında media nümayəndələrinin iştirakına etiraz etmirlər.

Hakim vəsatətə münasibət bildirmək üçün müşavirə otağına gedib. Bir neçə dəqiqə sonra geri dönən hakim vəsatətin təmin edildiyini elan edib. Prosesin qapalı keçirilməsini əsaslandırmağın yayınıb.

Cavabdeh tərəfin vəkilləri prosesin qapalı keçirilməsi üçün əsasların olmadığını hakim diqqətinə çatdırmaqla etirazlarını bildiriblər. Bundan sonra proses iddiaçı və cavabdeh tərəfin vəkillərinin iştirakı ilə davam etdirilib.

Proses 29 avqust 16:30-da davam etdiriləcək.

Qeyd edək ki, Prezidentin əmisi oğlu İlqar Əliyevin İlham Məmmədov və Şahbaz Şahbazov adlı iki şəriki olub. Mətbuatda Şahbaz Şahbazovun müraciətləri yer alır ki, İlham Məmmədov ona qarşı qanunsuz hərəkətlər edərək paylarını əlindən alıb. Şahbaz Şahbazov özünə qarşı qanunsuz ittihamların irəli sürüldüyünü deyərək, məcburiyyət qarşısında ölkəni tərk etdiyini söyləyir.

İlham Məmmədov isə Şahbaz Şahbazovu ittiham edərək onun İlqar Əliyevin etibarından istifadə edərək əmlakları ələ keçirdiyini bildirir. Son olaraq isə "Nigar Klinikası"nda baş verən qalmaqalla bu məsələ gündəmə gəlmişdi. İndi isə ortada olan iddialardan məlum olur ki, İlham Məmmədov həm Şahbaz Şahbazova, həm də İlqar Əliyevə qarşıdır. Riyad Əliyev isə İlham Məmmədovla eyni tərəfdən çıxış edərək İlqar Əliyevin xanımı Solmaz Əliyeva və digərlərinə qarşı iddialar qaldırıb. Şahbaz Şahbazov barəsində cinayət işi başlanıb. İlham Məmmədov isə ötən ilin sonlarında bilə-bilə yalan məlumat vermə, xəbərçilik ittihamı ilə həbs edilmişdi. Daha sonra azadlığa buraxılıb.

Qeyd edək ki, Riyad Əliyev tez-tez qalmaqallı hadisələrlə gündəmə gəlib. O, daha əvvəl yol polisləri ilə dava etdiyinə görə inzibati qaydada həbs edilib.

Bundan başqa onlara məxsus "Riad" mühafizə şirkətinin adı da müxtəlif qalmaqallara qarışdığı üçün lisenziyası ləğv edilib.

# Bakıda turizm şirkətinin müdiri bıçaqlandı

***Bakının Nərimanov rayonunda turizm şirkətinin müdiri ürəyindən, işçisi isə ayağından bıçaqlanıb.***



"Unikal" apa-ya istinadən xəbər verir ki, hadisə "Montin" adlanan ərazidə qeydə alınıb. Turizm şirkətinin müdiri Cavid Məmmədov və işçisi 18 yaşlı Amanzadə Kamran Azər oğlu agentliyin sürücüsündən pul almaq üçün onun yaşadığı Nərimanov rayonu ərazisinə gəlib. Bu zaman onlar dörd nəfər naməlum şəxsin hücumuna məruz qalıb. C.Məmmədov ürəyindən bıçaqlanıb. O, ağır vəziyyətdə 5 nömrəli xəstəxanaya yerləşdirilib. Həkimlər onun vəziyyətinin ağır olduğunu bildirirlər. K.Amanzadə isə ayağından bıçaqlanaraq Kliniki Tibbi Mərkəzə yerləşdirilib.

Faktı Nərimanov Rayon Polis İdarəsinin əməkdaşları araşdırır.

# Astarada 4516 hektar əkinə yararlı torpaq sahəsinin suvarılması tam təmin olunur

***Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyətinin mətbuat katibi Dilqəm Şərifov bildirib ki, Suvarmanın düzgün aparılması kənd təsərrüfatı bitkilərinin inkişafında və məhsuldarlığın artmasında mühüm rola malikdir. Astarada suya tələbatı çox olan əkin sahələri çayçılıq, çəltikçilik, sitrusçuluq, bostan bitkiləri və yonca otlaq sahələridir ki, su ilə tamamilə təmin olunublar. Hazırda rayonda suvarma imkanlarının yaxşılaşdırılması istiqamətində zəruri tədbirlər görülür.***



Əlverişli iqlim şəraitinə malik kənd təsərrüfatı rayonlarından biri olan Astarada 4516 hektar suvarılan əkinə yararlı torpaq sahəsi var. Astara suvarma sistemləri idarəsi suvarma suyunun tələbatçılara vaxtında, itkisiz verilməsi, məhsuldarlığın əvvəlki illərə nisbətən artırılması üçün öhdəsinə düşən işləri görməkdədir. İdarənin əsas fəaliyyətindən biri suvarma, suötürücü və magistral kanalların işlək vəziyyətdə saxlanılmasıdır. İlin əvvəlindən selötürücü və suötürücü kanalların lildən və palçıqdan təmizlənmə işlərinə başlanılıb.

Astara rayonu ərazisində 4 su mənbəyindən istifadə olunur. Lovayın və Xanbulançay su anbarları, Astaraçay və Pensərçaydan əkin sahələrinə suyun ötürülməsi təmin edilir. Astarada yerləşən yeganə su anbarı Lovayının tutumu 6,3 milyon kubmetrdir. Bu su anbarının mənbəyi əsasən yağış sularıdır. Hazırda bir sıra əkin sahələrinin su ilə təminatı uğurla həyata keçirilir. Rayonda əsasən suya tələbatı çox olan çayçılıq, çəltikçilik, sitrusçuluq, yonca otlaq sahələri və bostan bitkiləridir. Bu əkin yerlərini su ilə təmin etmək üçün 253 min km-lik açıq kanalların üzərində 400-dən çox bənd qurulub. Qeyd edək ki, Astarada 250 hektar çəltik sahəsi var və bu sahələrin suvarılması artıq yekunlaşmaq üzrədir.

Tovuz rayonunda 23 min hektardan artıq əkin sahəsi suvarılır. Dilqəm Şərifov bildirib ki, Tovuz Suvarma Sistemləri İdarəsi Tovuz rayonunun suvarılan sahələri üzrə, əkin sahələrinin su təminatını uğurla yerinə yetirir. Belə ki, rayonda suvarılan torpaq sahələrinin suvarılmasında 858 km uzunluqda təsərrüfatdaxili, 145 km uzunluqda isə təsərrüfatlararası kanallardan istifadə olunur. İdarə tərəfindən həmin kanallar hər il mütəmadi olaraq lildən təmizlənir. O cümlədən kanalların beton üzlüyə alınması nəticəsində su itkisinin minimuma endirilməsi təmin edilir. Hazırda idarənin texnikaları və əl əməyi ilə kanalların lildən və kol-kosdan təmizlənməsi həyata keçirilir. Ümumiyyətlə bu günə qədər arx və kanallar 211 min kub metr sahədə lildən təmizlənib. Bundan başqa Tovuz rayonunda əsas su mənbələrindən hesab olunan Tovuzçay Su Anbarına toplanan sudan da istifadə olunur

Tovuz Suvarma Sistemləri İdarəsi Tərəfindən suvarmanı mütəşəkkil təmin etmək üçün plana uyğun olaraq bütün meliorativ tədbirlər mütəmadi olaraq həyata keçirilir. İdarənin balansında olan 454 ədəd subartezian quyularından 236-da cari təmir işləri aparılıb və quyuların fəaliyyəti tam saz vəziyyətdədir. Əhalinin içməli və əsasən də suvarma suyuna olan tələbatının ödənilməsi məqsədilə bu ildə rayonun müxtəlif kəndlərində 10 ədəd subartezian quyusunun qazılması nəzərdə tutulub ki, artıq bu quyulardan birinin qazıntısı Dondar Quşçu kəndində yerinə yetirilir.

Qeyd edək ki, Tovuz Suvarma Sistemləri İdarəsi Tovuz rayonunun əkin dövriyyəsində olan 23000 hektardan artıq müxtəlif kənd təsərrüfatı bitkilərinin suvarma suyu ilə təmin olunmasına xidmət edir. Sahələrin suvarılmasında su anbarları, çaylar, kanallar və subartezian quyularından istifadə edilir. Bundan başqa balansda olan 30 ədəd nasos stansiyanın da fəaliyyəti hazırda işlək vəziyyətdədir.

***Hüseyn İsgəndərov***

# Əbədiyyətə çevrilmiş Vətən sevgisi



***Yardımlı rayonu, Zevin kəndində dünyaya göz açmış Sarvan Əli oğlu Mirzəyev xalqımıza zəfər qazandıran 44 günlük Vətən müharibəsində erməni dığalarına qarşı qəhrəmanlıqla vuruşub. Əzəli, əbədi yurd yerimiz olan Qarabağın hər qarışını qorumaq, mübarizliklə qalib gəlmək istəyi ilə döyüşlərə atılan dağlar qartalı müqəddəs əsgəri borcunu şərəflə yerinə yetirməklə Şuşa istiqamətində gedən döyüşlər zamanı şəhidlik zirvəsinə ucalır. Beləliklə əbədiyyətə çevrilmiş Vətən sevgisi 25 yaşında Sarvana yaddaşlara həkk olan şərəfli bir ömür bəxş edir.***

Bəli, Sarvan Əli oğlu 2013-cü ildə ordu sıralarına müqəddəs Vətən torpaqlarını azad görmək eşqi ilə yola düşür. Bundan ötrü yağı düşmənlə sona qədər döyüşüb qisas alacağına söz verir. Qusar şəhərində yerləşən N saylı hərbi hissədə xidmətə başlayır. Doğma Azərbaycanın keşiyində ləyaqətlə durur, hərəkətlərində xalqına, Vətəninə gərəkli oğul olduğu bilinir. Hərbi sirlərini mükəmməl öyrənməklə əsgərliyini başa vurur. Axı hələ Vətən torpaqları işğal altında idi...

Bir müddət Sarvan dinc əməklə məşğul olur. Canında, qanında mərdlik, cəngavərlik ruhu igidi dığaların işğal siyasəti çox narahat edir. Vətənə cəsur oğulların lazım olduğunu başa düşüb yenidən hərbiyə qayıdır. Əyninə əsgər paltarı geyinib düşmənlə qisas gününə hazırlaşır. İkinci Qarabağ savaşı başlanan kimi düşmənə qan qusdurur. Nəticədə dığalar itkilər verə-verə geri çəkilirlər. Sarvan isə haqq uğrunda döyüşdüyü üçün Vətən, torpaq sevgisi neçə-neçə ölüm-dirim savaşından onu üzüağ çıxardır. İgidliyi əsgər yoldaşlarına da nümunə olur. Arzuladığı qələbə gününün bir addımlığında cavan ömrünü canından artıq sevdiyi Vətənə bağışlayır. Milyonların qəlbində özünə əbədi məskən salan Sarvan ölümündən sonra dövlət tərəfindən "Vətən uğrunda" və "Şuşanın azad olunmasına görə" medalları ilə təltif edilir.

***Zəfər Orucoğlu, AJB üzvü***

# Məktəb direktoru olmaq istəyənlərin nəzərinə



***Bu gündən ümumi təhsil müəssisələrinə direktorların işə qəbulu müsabiqəsinə başlanılır.***

Bu barədə "Unikal"a Elm və Təhsil Nazirliyindən bildirilib.

Belə ki, şagird sayı 500 nəfərdən çox və direktor vəzifəsi vakant olan ümumi təhsil müəssisələrinə direktorların işə qəbul prosesinin elektron sənəd qəbulu mərhələsinə start verilir. Proses nazirlik tərəfindən mərkəzləşdirilmiş qaydada proqram təminatı vasitəsilə müsabiqə yolu ilə həyata keçiriləcək. Direktor olmaq istəyən şəxslər avqustun 16-dək www.miq.edu.az/direktorlar linkinə daxil olaraq elektron qeydiyyatdan keçə bilərlər.

"Dövlət ümumi təhsil müəssisələrinə direktor vəzifəsinə işə qəbul qaydaları"na əsasən, müsabiqə yazılı imtahan və müsahibə mərhələlərindən ibarət olacaq. Müsabiqənin yazılı imtahan mərhələsi test imtahanı və yazı işindən ibarətdir. Test imtahanında namizədlərə pedaqogika və metodika üzrə 20 sual, tənqidi oxu bacarığı, təhsil və idarəetmə üzrə qanunvericilik, liderlik və menecment, riyazi məntiq üzrə hər birinə aid 10 sual olmaqla ümumilikdə 60 test tapşırığı təqdim ediləcək. Təqdim olunan sualların yarısını düzgün cavablandıran namizədlərə yazı işi üzrə esse mövzuları təqdim olunacaq. Namizədin seçdiyi esse mövzuları üzrə mümkün 10 baldan yarısını toplayanlar müsahibə mərhələsinə buraxılacaqlar.

2021-ci ildə keçirilmiş direktorların işə qəbulu üzrə müsabiqədə keçid balı toplamış və müsahibə mərhələsinə dəvət olunmamış şəxslər birbaşa esse mərhələsində iştirak etmək imkanı qazanacaqlar. Həmin şəxslər yenidən test imtahanı mərhələsində iştirak etdikləri halda ötənilki müsabiqə nəticəsi qüvvədən düşəcək.

Test imtahanından əvvəl bölmələr üzrə nümunə test tapşırıqları paylaşılacaq.



# "Regionda geosiyasi dəyişikliklər qəbuledilməzdir" - Rəisi Paşinyanla danışdı

***İran üçün regionda geosiyasi dəyişikliklər qəbuledilməzdir. Tehran sülh və sabitliyin təmin edilməsi, eləcə də Qafqaz regionunun böyüməsi və inkişafı üçün bütün imkanlarından istifadə etməyə hazırdır.***

Bunu İran prezidenti İbrahim Rəisi Ermənistanın baş naziri Nikol Paşinyanla telefon danışığı zamanı deyib.

İran prezidentinin saytının yaydığı məlumatda qeyd edilir ki, son vaxtlar regionda vəziyyətin kəskinləşməsindən danışan Rəisi üçtərəfli bəyanatın müddəalarına əməl olunmasının vacibliyini bildirib.

Rəisi hesab edir ki, "qalan məsələlərin dialoq və diplomatiya yolu ilə həlli Qafqazda sabitlik və təhlükəsizlik yaratmaq üçün ən yaxşı yoldur".

Bundan başqa İran prezidenti iki ölkə arasında dərin və tarixi münasibətlərin olmasını qeyd edib. O, İrəvan və Tehran arasında davamlı iqtisadi əməkdaşlıq səviyyəsinin artırılmasının vacibliyini vurğulayıb. Öz növbəsində Ermənistanın baş naziri Nikol Paşinyan İran prezidentini Azərbaycanla baş verən son toqquşmalar barədə məlumatlandırıb.

# Trampın yaxın adamını öldürmək istəyirlər

***"SEPAH üzvü Donald Trampın keçmiş milli təhlükəsizlik müşavirini öldürmək üçün 300 min dollar təklif edib".***

"Unikal" xəbər verir ki, bu haqda ABŞ-ın Ədliyyə Departamenti məlumat yayıb. Birləşmiş Ştatlar səlahiyyətliləri İran İslam İnqilabı Keşikçiləri Korpusunun (SEPAH) üzvü olduğu iddia edilən bir şəxsi ABŞ-ın keçmiş milli təhlükəsizlik müşaviri Con Boltona sui-qəsd hazırlamaqda, ehtimal ki, İran generalı Qasım Süleymaninin 2020-ci ildə öldürülməsinə görə qisas almaqda ittiham edib.

ABŞ Ədliyyə Nazirliyi çərşənbə günü Tehrandan Şəhram Poursəfiyə qarşı ittihamları açıqlayıb və onu Vaşinqtonda və ya qonşu Merilenddə qətli həyata keçirmək üçün ABŞ-da yaşayan naməlum şəxsə 300 min dollar təklif etməkdə ittiham edib.

***Aynurə Xudaverdiyeva***

# Almaniya Rusiya ilə münasibətlərə görə Avropada etibarını itirib



***Almaniyanın enerji sektorunda Rusiya ilə sıx münasibətləri fonunda Avropa Birliyində etimadını itirdiyi iddia edilir.***

Bu barədə Amerikanın "Foreign Affairs" nəşri xəbər yayıb. KİV-in məlumatına görə, Almaniyanın Moskva ilə sıx enerji əlaqələri respublikanın bir çox Avropa müttəfiqləri arasında etimadın olmamasına səbəb olub. Xüsusilə, rəsmi Berlinin Ukraynada münaqişənin başlamasına bir neçə gün qalmış "Şimal axını 2" qaz kəməri layihəsinin dayandırılmasından imtina etməsi münasibətləri korlayıb. Nəşr əlavə edib ki, Almaniya Rusiyanın Ukraynadakı hərbi əməliyyatının dayandırılmasında maraqlı olduğunu nümayiş etdirməli və Aİ-yə dəstək verməlidir. "Almaniya yalnız yaxın gələcəkdə Aİ-nin daha geniş təhlükəsizlik məsələlərinin həllində liderliyini bərpa edə biləcək".

# Rusiya XİN Paşinyana cavab verdi

***Rusiya Xarici İşlər Nazirliyi Ermənistanın Baş naziri Nikol Paşinyanın Azərbaycan ərazisində müvəqqəti yerləşdirilən Rusiya sülhməramlı kontingentinin fəaliyyəti barədə iddialarına münasibət bildirib.***



"Unikal" xəbər verir ki, nazirliyin İnformasiya və Mətbuat Departamentinin direktor müavini İvan Neçayev keçirdiyi brifinqdə bununla bağlı sualı cavablandırıb.

"Biz Rusiya sülhməramlılarının ayrı-ayrılıqda tənqid edilməsini əsassız hesab edirik. Sülhməramlılar vəziyyəti sabitləşdirmək üçün fəal işləyirlər. Onların rolu Bakı və İrəvanda qeyd olunub", - İ.Neçayev söyləyib.

Qeyd edək ki, Ermənistan Baş naziri Nikol Paşinyan avqustun 4-də hökumətin iclasında Azərbaycan ərazisində müvəqqəti yerləşdirilən Rusiya sülhməramlılarının fəaliyyətinin suallar doğurduğunu deyib.

Rusiyanın xarici işlər naziri Sergey Lavrov N.Paşinyana cavab olaraq bildirmişdi ki, Ermənistandan sülhməramlıların fəaliyyətinə dair konkret təkliflər gəlməyib.

# "Rusiya dünyanın ən böyük terror təşkilatına çevrilib" - Kuleba

***"Rusiya dünyanın ən böyük terror təşkilatına çevrilib. İşğalçı ölkə təkcə Ukrayna üçün deyil, bir sıra başqa dövlətlər üçün də təhlükə yaradır".***



"Unikal" xəbər verir ki, bunu Ukraynanın xarici işlər naziri Dmitri Kuleba deyib.

O qeyd edib ki, altı aydan az müddətdə ruslar Roma Statutunda sadalanan beynəlxalq cinayətlərin tam spektrini törədiblər: "Soyqırım, insanlığa qarşı cinayətlər, müharibə cinayətləri və təcavüz cinayətləri. Lakin Rusiyanın vəhşi siması həqiqətən də təcavüzün bu mərhələsindəki iyrənc terror aktlarında özünü göstərdi".

"Mülki əhaliyə qarşı davamlı raket hücumları, Xarkov, Nikolayev və digər şəhər və qəsəbələrin yaşayış məntəqələrinin bombalanması və vəhşicəsinə atəşə tutulması, uşaq bağçalarının, məktəblərin, xəstəxanaların, infrastrukturun hədəfə alınması, müvəqqəti işğal olunmuş ərazilərdə ukraynalılara qarşı terrordur", - Kuleba bildirib.

XİN rəhbəri Ukrayna dövlət başçısı Volodimir Zelenskinin mühüm sözlərini də xatırladıb: "Prezident Zelenskinin dediyi kimi, müasir Rusiya dünyanın ən böyük terror təşkilatına çevrilib. Terrorçu Putin rejimi təkcə Ukrayna üçün deyil, bütün Avropa və dünya üçün təhlükə yaradır".

Xatırladaq ki, bu yaxınlarda ABŞ Senatı Rusiyanın terrorizmə sponsorluq edən dövlət kimi tanınmasını təsdiqləyib.

***Ağarza Elçinoğlu***

# ABŞ Çinin sanksiyalarını ələ saldı - "Kimin vecinədir?"

***Bu yaxınlarda Nensi Pelosinin Tayvana səfəri dünyanın gündəmində idi.***

"Unikal" ABŞ mətbuatına istinadən xəbər verir ki, hərbi təyyarə ilə Tayvana gedən Pelosi Çin ordusunu səfərbər edib.

Çinin aqressiv münasibətinə baxmayaraq, Pelosi səfərindən sonra bölgədə heç bir neqativ hal yaşanmadan ölkəni tərk edib. Digər tərəfdən, Pelosi dünən keçirdiyi mətbuat konfransında Çini ələ salıb.

Çinin ABŞ-a tətbiq etdiyi sanksiyalarına gülərək cavab verən Pelosi "Bunlar kimin vecinədir?",-deyib.

***Aynurə Xudaverdiyeva***

# Kim Çen Inın bacısı onun ağır xəstəliyindən danışdı

***Şimali Koreya lideri Kim Çen Inın bacısı, Koreya Fəhlə Partiyası Mərkəzi Komitəsinin sədr müavini Kim Ye Çjon bildirib ki, qardaşı Şimali Koreyada "qızdırma" epidemiyası zamanı ağır xəstələnib.***

O, respublika rəhbərinin koronavirusa yoluxmuş ola biləcəyini nəzərdə tutub:

"Baxmayaraq ki, o, yüksək temperaturla ağır xəstə idi, epidemiya əleyhinə mübarizə şərtlərində qeydinə qalmalı olduğu insanları düşünməkdən bir an belə dincələ bilmirdi".

Kim Ye Çjon müvafiq bəyanatla epidemiya əleyhinə tədbirlərə həsr olunmuş iclasda çıxış edib.

Bu görüş çərçivəsində Kim Çen Inın özü respublikanın koronavirus üzərində minimum itki ilə qalib gəldiyini elan edib.

Qeyd edək ki, Şimali Koreyada COVID-19 qurbanlarının rəsmi sayı 74 nəfər olub.

# Macar mediası: “Qarabağ” onları parça-parça elədi”




***Macarıstan mediası Çempionlar Liqasının üçüncü təsnifat mərhələsinin “Ferentsvaroş” - “Qarabağ” matçına (1:3, ilk oyun 1:1) geniş yer ayırıb.***

Qol.az xəbər verir ki, demək olar, bütün yazılarda Budapeşt təmsilçisinin məğlubiyyətindən təəssüf ifadə olunub.

“Qonaqlar matça daha cəsarətli başladılar. “Ferentsvaroş” mərkəz xəttini keçə bilmirdi. “Qarabağ”ın yüksək pressinqi 7-ci dəqiqədə onların qol vurmasına səbəb oldu” - deyə “M4sport” yazıb.

csakfoci.hu saytı isə bunları qeyd edib: “Ferentsvaroş”un müdafiədəki kobud səhvi komandanın ÇL-dən çıxmasına gətirib çıxardı. “Qarabağ” “Ferentvaroş”un müdafiəsini parça-parça elədi”.

“Magyar Nemzet” nəşri isə müdafiənin bərbad, hücum xəttinin isə qətiyyətsiz olduğunu yazıb.

“Nemzety Sport” nəşri “Çempionlar Liqası arzusu bitdi. “Ferentvaroş” evdə “Qarabağ”a uduzdu” başlıqlı yazıda Ağdam klubunun rəqibini bütün göstəricilərdə üstələdiyini qeyd edib: “Heç bir şübhə yoxdur ki, ən yaxşı və ən güclü komanda növbəti mərhələyə adladı. Burada onlar ÇL-in qrupuna düşmək üçün “Viktoriya” ilə yarışacaqlar. “Yaşıl-ağlar” isə Avroliqanın qrupunda oynamaq üçün iki görüş keçirməlidirlər. Belə görünür ki, Avropanın ən yaxşı turnirində yarışmaq hələ “Ferensvaroş”un səviyyəsi üçün deyil”.

“Nevzava” nəşri isə təəccüblü yazır: “Məgər buna görə Macarıstan çempionatındakı oyun təxirə salındı?” Yazıda Qurban Qurbanovun komandasının oyunu barədə müsbət fikirlər yer alıb.

Media yazılarda “Ferentsvaroş”un baş məşqçisi Stanislav Çerçesovun da fikirlərini işıqlandırıb.

“Bu gün meydanda görünmədik. Start fitindən sonra matça lazım olan kimi daxil olmadıq, hər şey planlaşdırdığımız kimi getmədi. Daha dominant rəqibə uduzduq. Bu, layiqli məğlubiyyət idi” - deyə “Oriğo” saytı yazır.

Komandanın kapitanı Denes Dibus isə deyir: “Erkən qol oyun planımızı pozdu. Amma biz oyundan belə tez qopmamalı idik. Bilirdik ki, onların ən kiçik səhvlərdən də ustaca yararlanan futbolçuları var. Buna baxmayaraq, çoxlu kobud səhvlərə yol verdik ki, “Qarabağ” da bundan istifadə etdi. İki oyunun nəticəsinə əsasən, ən yaxşı komanda növbəti mərhələyə adladı. Bugünkü oyun göstərdi ki, biz isə Çempionlar Liqasının qrupunda oynamağa hazır deyilik”.

Rusiyanın “Sport-ekspress” qəzeti isə yazır ki, matçdan sonra “Ferentsvaroş”un sosial media səhifələrinə girməmək yaxşı idi: “Hər yer yeni şərhdə macar dilində söz tapmaq mümkün deyildi. Yazanlar ancaq “Qarabağ”ın azarkeşləri idi. “İrəli, “Qarabağ”, “Qurban Qurbanov Qafqazın ən yaxşı məşqçisidir”. Şəkillər altında ən geniş yayılan fikirlər bunlar idi”.

# Avropa İttifaqının səfiri "Qarabağ"ı növbəti dəfə təbrik etdi

***Avropa İttifaqının (Aİ) Azərbaycandakı nümayəndəliyinin rəhbəri, səfir Peter Mixalko “Qarabağ”ı Çempionlar Liqasının pley-off mərhələsinə yüksəlməsi münasibəti ilə təbrik edib.***



O, bununla bağlı özünün ”Tvitter” səhifəsində yazıb: ”Qarabağ”ı bir daha təbrik edirəm. Komanda UEFA Çempionlar Liqasının pley-off mərhələsinə vəsiqə qazandı. Yenə heyrətamiz futbol matçı oldu”.

Xatırladaq ki, P.Mixalko bundan əvvəl Ağdam təmsilçisini 3-cü təsnifat mərhələsinə yüksəlməsi münasibəti ilə təbrik etmişdi.

Qeyd edək ki, ilk oyunda Macarıstan ”Ferentsvaroş”u ilə 1:1 hesablı heç-heçə edən ”Qarabağ” cavab görüşündə 3:1 hesabı ilə qalib gələrək pley-offa yüksəlib.

# UEFA Superkubokunun qalibi müəyyənləşdi



***UEFA Superkuboku uğrunda oyun keçirilib. Qol.az xəbər verir ki, Finlandiyanın paytaxtı Helsinkidəki Olimpiya Stadionunda oynanılan matçda İspaniyanın ”Real” və Almaniyanın ”Ayntraxt” (Frankfurt) klubları qarşılaşıb. Oyun Madrid klubunun 2:0 hesablı qələbəsi ilə başa çatıb.***

Qeyd edək ki, ”Real” Çempionlar Liqasının, ”Aytraxt” isə Avropa Liqasının son qalibidir.

**10 avqust**

UEFA Superkuboku

23:00. ”Real Madrid” (İspaniya) - ”Ayntraxt” (Frankfurt, Almaniya) - 2:0

Qollar: Alaba, 37, Benzema, 65

Baş hakim: Maykl Oliver

Helsinki Olimpiya Stadionu




# Azərbaycan millisinin oyunları ləğv olundu

***Futzal üzrə Türkmənistan millisinin Bakıya səfəri təxirə salınıb.***

Apasport.az saytının məlumatına görə, buna səbəb yerli federasiyanın sənədləşmə porsesini vaxtında etməməsi və ölkəmizə giriş üçün viza ala bilməməsidir.

Halbuki Türkmənistan yığması bu gündən avqustun 20-dək Bakıda təlim-məşq toplanışı, eyni zamanda Azərbaycan millisi ilə avqustun 17-də və 19-da yoldaşlıq oyunları keçirməli idi.

Lakin yaranmış problemə görə, Azərbaycan millisinin bu rəqiblə keçirəcəyi oyunlar, eləcə də avqustun 9-dan 20-dək nəzərdə tutulan təlim-məşq toplanışı ləğv olunub.

# PSJ-nin İkardi qərarı



***PSJ artıq futbolçusu Mauro İkardini komandada görmək istəmir.***

Bu barədə ”RMC Sport” məlumat yayıb. Paris klubu 29 yaşlı hücumçunu ”arzuolunmaz futbolçular” siyahısına daxil edib. Argentinalı forvard əsas komandadan ayrı məşq edəcək.

İkardi Liqa 1-in ilk turunda ”Klermon”la matçın (5:0) iştirak ərizəsinə də daxil edilməmişdi.

Qeyd edək ki, İkardi 2019-cu ildən PSJ-də oynayır.

# Azərbaycan İslamiadada daha bir medal qazandı

***Azərbaycan Türkiyənin Konya şəhərində keçirilən 5-ci İslam Həmrəyliyi Oyunlarında daha bir medal qazanıb.***



Ağırlıqqaldıranımız Nazilə İsmayılova (45 kq) bürünc medal əldə edb. O, iki hərəkətin cəmində 121 kq nəticə göstərib. Nazilə birdən 54 kq, təkanla isə 67 kq ağırlığın öhdəsindən gəlib.

Qeyd edək ki, Nazilə İsmayılova Azərbaycana ağırlıqqaldırma növündə ilk, ümumilikdə isə 14-cü medalı qazandırıb.

# Avropa Liqası: “Fənərbaxça” və digərləri...

***Avropa Liqasında III təsnifat mərhələsi başa çatacaq. İkinci oyun günündə 6 görüşü olacaq.***

“Fənərbaxça” Çexiyada “Slovaçko”nun qonağı olacaq. Türkiyə klubu İstanbuldakı ilk görüşdə 3:0 hesablı qələbə qazanıb.

**Avropa Liqası**

III təsnifat mərhələsi, cavab oyunları

**11 avqust**

20:00. HİK (Finlandiya) - “Maribor” (Sloveniya)
21:00. “Slovaçko” (Çexiya) - “Fənərbaxça” (Türkiyə)
21:00. “Sürix” (İsveçrə) - “Linfild” (Şimali İrlandiya)
22:00. “Düdelanj” (Lüksemburq) - “Malmö” (İsveç)
22:30. “Slovan” (Slovakiya) - “Olimpiakos” (Yunanıstan)
23:00. “Partizan” (Serbiya) - AEK (Kipr)